Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

2

İYUL 2019-cu il

№ 114 (4012)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN NƏHAYƏT Kİ, QARABAĞ SEPARATÇILARININ LİDERİNİ İSTİNTAQA CƏLB EDƏ BİLDİ: «DQR» - ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN MAHİYYƏTİ KƏSİNLİKLƏ DƏYİŞİR

səh. 8

UNESCO-nun 43-cü sessiyasının Bakıda keçirilməsinin səbəblərini Mehriban Əliyeva daha dəqiq bilir... səh. 3

KİVDF-nin təşkilatçılığı ilə Azərbaycan media rəhbərlərinin Moskvaya səfəri başlayıb səh. 2

Ermənipərəstlikdə ad çıxarmış məşhur Zatulin klubu da Paşinyandan imtina etdi səh. 8

Ümumdünya İrs Siyahısına əlavə ediləcək 36 qiymətli abidənin sırasında Azərbaycan incisi...(?) səh. 12

Əmanət və kredit faizləri arasındakı böyük fərq niyə hələ də aradan qalxmır? səh. 6

Qaçqın rayonunun İcra Hakimiyyəti üçün 200 minlik xidməti avtomobil? səh. 11

BP SOCAR-la BOTAŞ-ın arasında... Dünya nəhənginə kimin payından pay tutulacaq? səh. 7

Xəzərdə xilasedicilərin sayı azaldıqca boğulanların sayı çoxalır... səh. 15



səh. 9

## Qarabağ düyünü Ermənistanın regionda mövqeyini tam sarsıdan faktora çevrilir... Düşmən ölkəni indi də «Mehri panikası» bürüyüb...



### Böyük 20-lər çərçivəsində Putin-Tramp görüşü nəticəsində Rusiya - ABŞ isinişməsi və Qarabağ sülh prosesinə təsir perspektivləri...

səh. 3

### Azərbaycan üzərindən daha bir önəmli nəqliyyat dəhlizi işə salınır - Xəzərin tranzit imkanları Avropa və Mərkəzi Asiya ölkələrinin gündəmində...

səh. 5



### Paşinyanın xəfiyyələri Köçəryanın oğurlayıb Maltaya qaçırdığı sərvətlərin də izinə düşüb

səh. 5

səh. 4

### Həmişə yerin görünəcək, Cəlal müəllim!..



səh. 7

### Bank əmanətləri üzrə dividend faizləri endirilir, banklarda əmanət saxlayanları nə gözləyir...



səh. 10

### Azərbaycanın məcburi köçkünləri arasında yoxsulluq həddi 75 faizdən 12 faizə endi



səh. 10

### Bakı Metropoliteninin fəaliyyətində mübahisəli rəqəmlər - 54 milyonluq zərər haradan çıxdı?



səh. 11

### Yol kənarlarında plastik butulkalarda pərakəndə benzin satışı təhlükəsi yenidən qayıdır...



## Mehriban Əliyeva DTX-nin "N" saylı hərbi hissəsində hərbi qulluqçuların ehtiyata buraxılması mərasimində iştirak etdi

**İyulun 1-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib. "Trend"in məlumatına görə, mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iştirak edib.**



"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin 2019-cu il 3 iyun tarixli Sərəncamına uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib.

Mərasimdə xidməti vəzifələrin icrası zamanı fərqlənən əsgərlərə Fəxri Fərman, xatirə hədiyyələri və valideynlərinə təşəkkür məktubları təqdim olunub.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edən valideynlərlə görüşərək söhbət edib.

# Prezident Qəbələdə yol tikintisinə 12,7 milyon manat ayırdı

**Prezident İlham Əliyev Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, on min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 12,7 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.



Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# KİVDF-nin təşkilatçılığı ilə Azərbaycan media rəhbərlərinin Moskvaya səfəri başlayıb








**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı başlayıb.**



Nümayəndə heyətinin Rusiyanın jurnalist təşkilatları və aparıcı KİV-in redaksiyalarında görüşləri nəzərdə tutulub.

Səfər proqramı iyulun 1-də başlayıb və ilk görüş Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində keçirilib. Səfir Polad Bülbüloğlu nümayəndə heyətini salamlayaraq, Azəbaycanın aparıcı KİV qurumlarının Rusiya Federasiyasına səfər proqramını müsbət dəyərləndirdiyini bildirib. O, iki ölkənin KİV qurumlarının əlaqələrinin güclənməsinin hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb. Səfir Azərbaycan və Rusiyanın müştərək maraqlarına xidmət edən proqramlar barədə də məlumat verib. Bu proqramların reallaşması üçün medianın dəstəyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb və Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu yöndə ciddi önəm daşıdığını vurğulayıb.

KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin, Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya-Azərbaycan media təmsilçilərinin sıx təmaslarının zəruri olduğunu, bunun üçün həm Rusiya, həm də Azərbaycan dövlətinin dəstəyinin önəmli olduğunu vurğulayıb.

Səfir Polad Bülbüloğlu iki ölkə KİV-inin təmaslarının gücləndirilməsi üçün səlahiyyətləri çərçivəsində bütün dəstəyi verməyə hazır olduqlarını qeyd edib.

Nümayəndə heyətinin növbəti görüşü "İTAR-TASS" İnformasiya Agentliyində keçirilib. Nümayəndə heyətinin üzvləri öncə Agentliyin iş mühiti ilə tanış oldular. Daha sonra baş redaktor Maksim Filimonovla görüş keçirilib. Səmimi diskussiya şəraitində keçirilən görüşdə tərəflər qarşılıqlı maraqları və əlaqələrin inkişafı üçün fikirlərini çatdırıblar.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF-nin Müşahidə Şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədr müavini Rəşad Nəsirov, "AzərTAC" İnformasiya Agentliyinin redaksiya müdir müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir.

Görüşlər davam edir. Səfər proqramı iyulun 4-dək davam edəcək.

**Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilir. Belə bir əhəmiyyətli tədbirin Azərbaycanda keçirilməsinin səbəbləri çoxdur. Məlum olduğu kimi, UNESCO-Azərbaycan əlaqələrinin formalaşmasında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın müstəsna rolu var.**

*"Bu səbəbdən də, gördüyümüz kimi, UNESCO çox qlobal və əhəmiyyətli tədbirlərin keçirilməsini hər zaman tərəddüd etmədən rəsmi Bakıya həvalə edir"*

# UNESCO-nun 43-cü sessiyasının Bakıda keçirilməsinin səbəblərini Mehriban Əliyeva daha dəqiq bilir...

***Aydın Xan Əbilov:*** *"Fondun dünyadakı məbədləri, kilsələri, muzeyləri, abidələri bərpa etməsi, bu kimi işlərdə aktiv fəaliyyət göstərməsi sözsüz ki, UNESCO-nun da diqqətindən yayınmır"*




UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakının evsahibliyi ilə keçirilməsinə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dünyada gördüyü işlər necə təsir etdi? **Yeni Yazarlar və Sənətçilər Qurumunun rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov hesab edir ki, bu tədbirin Bakıda reallaşmasında Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xaricdə gördüyü işlərin rolu böyükdür.** A.X.Əbilovun sözlərinə görə, Heydər Əliyev Fondu tərəfindən dünya mədəniyyətinin qiymətli tarixi örnəkləri olan abidələr, muzeylər və s. əsaslı şəkildə təmir-bərpa edilib.

O qeyd etdi ki, Heydər Əliyev Fondu xarici ölkələrdə də bir sıra işlər görüb. Onlardan biri də Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Vatikanda Müqəddəs Marçellinio və Pietro katakombalarıdır ki, onlar bəşəriyyətin inciləri sayılır.

Azərbaycanın tolerantlıq ünvanı olduğunu deyən müsahibimiz bildirdi ki, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın tolerantlıq irsinin dünyada təbliğində misilsiz xidmətləri var.

"Dünyanın bir çox beyin mərkəzi və fondları var ki, onlar müasir tariximizdə, həm də, ümumiyyətlə, planetdə baş verən geomədəni hadisələrdə aparıcı rol oynayırlar. Bu fondlardan biri də Heydər Əliyev Fondudur. Fond bu baxımdan dünyaya təsir göstərə bilən intellektual beyin, estetik-kulturoloji mərkəzlərindən biridir. Onun həm Avropada, həm də Şərqdə gördüyü müxtəlif işlər, həyata keçirdiyi tədbirlər, fəaliyyəti bu və ya digər mənada bəşəriyyətin ümumi, qlobal abidələri sırasında olan abidələrin təmir-bərpası ilə bağlı layihələri fondu dünyanın aparıcı təşkilatına çevirib. Heydər Əliyev Fondu hansı ölkədə ki, abidələrlə bağlı həyəcan təbili çalınır, həmin ölkədə bu təhlükənin qarşısını almaq üçün fəaliyyətə başlayır. Bu, İtaliyada, Pakistanda, Rusiyada da ola bilər. Fondun dünyadakı məbədləri, kilsələri, muzeyləri, abidələri bərpa etməsi, bu kimi işlərdə aktiv fəaliyyət göstərməsi sözsüz ki, UNESCO-nun da diqqətindən yayınmır. Eyni zamanda da bilirsiniz ki, bizim tarixi, mədəni, təbiət abidələrinin qorunmasında da Heydər Əliyev Fondunun çox böyük rolu var. Xüsusən də ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın, fondun vitse-prezidenti Leyla Əliyevanın mədəniyyət, ekologiya, təhsil, sosial sahələrlə bağlı gördüyü işlər UNESCO-nun da nəzərindən qaça bilməzdi. Bu səbəbdən də, gördüyümüz kimi, UNESCO çox qlobal və əhəmiyyətli tədbirlərin keçirilməsini hər zaman tərəddüd etmədən rəsmi Bakıya həvalə edir. Bu elə tədbirlərdir ki, onu keçirməyi başqa ölkələr yalnız arzulaya bilərlər. Bu tip tədbirlər bəzi ölkələrdə çox nadir hallarda keçirilir, bizdə isə sıx-sıx keçirildiyinin şahidi oluruq. Heydər Əliyev Fondu Mehriban Əliyevanın rəhbərliyi ilə 15 ildən çoxdur Azərbaycanın daxildə və xaricdə mədəni-kulturoloji, intellektual, kreativ, estetik səviyyəsinin yüksək olmasını təsdiqləyir. Bununla bağlı müxtəlif layihələr həyata keçirilir. Fond tərəfindən Qarabağ, Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində xaricdə silsilə tədbirlər təşkil edilir".

A.X.Əbiov, həmçinin, qeyd etdi ki, Heydər Əliyev Fondu Azərbaycanın bir sıra dəyərlərinin də UNESCO-ya daxil edilməsində və dünyada təbliğində əsaslı rol oynayır. O vurğuladı ki, Heydər Əliyev Fondu olan yerdə yüksək səviyyə, mədəni dəyərlərin qorunması və s. müəyyənləşir. "Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dünyada həyata keçirdiyi tədbirlər qlobal standartları müəyyənləşdirir" - deyə A.X.Əbilov vurğuladı.

***İradə SARIYEVA***

---

**ABŞ və Rusiya prezidentləri Donald Trampla Vladimir Putin Yaponiyanın Osaka şəhərində keçirilən "G20" sammiti çərçivəsində görüşüblər. Tramp Rusiya Prezidenti ilə nüvə silahsızlanması, ticari və siyasi mövzularda aparılan danışıqların müsbət nəticələnəcəyinə ümid etdiyini bildirib: "Düşünürəm ki, bu görüşün nəticələri əla olacaq".**




# Böyük 20-lər çərçivəsində Putin-Tramp görüşü nəticəsində Rusiya - ABŞ isinişməsi və Qarabağ sülh prosesinə təsir perspektivləri...

***Qabil Hüseynli:*** *"Həmin konkret nəticələr olacağı halda, biz Qarabağ probleminin həlli ilə bağlı optimist düşünə bilərik"*

V.Putin, öz növbəsində, bildirib: "Bütün mövzular qeyd olunur, Helsinkidə keçirilən görüşdən sonra birbirimizi uzun müddət görməmişik. Əməkdaşlarımız işlədilər və bizə Helsinkidəki razılığımızı davam etdirmək üçün yaxşı fürsət verildi".

Danışıqlarda Rusiya tərəfindən xarici işlər naziri Sergey Lavrov, maliyyə naziri Anton Siluanov, Prezidentin köməkçisi Yuri Uşakov, Prezidentin mətbuat katibi Dmitri Peskov, Amerika tərəfindən isə dövlət katibi Mayk Pompeo, maliyyə naziri Stiv Mnuçin, Ağ Ev aparatının rəhbəri İk Malveyni, Prezidentin milli təhlükəsizlik üzrə köməkçisi Con Bolton, Ağ Evin mətbuat katibi Stefani Qrişem iştirak ediblər.

Təxminən 90 dəqiqə davam edən görüşdə dünya liderləri İran, Suriya, Venesuela və Ukraynadakı vəziyyəti müzakirə ediblər. Qeyd edilir ki, tərəflər görüşdən razı ayrılıblar. Əksər poilitoloqlar hesab edir ki, Yaponiyada keçirilən görüşdə tərəflər aralarındakı ziddiyyətləri bir qədər yumşalda bilib.

Yaponiyada Putinlə Tramp arasında görüşdə aranın bir az düzəlməsi, ABŞ-Rusiya münasibətlərinin yaxşılaşması Qarabağ probleminin həlli baxımından hansı yeni perspektiv açır, ya dəyişiklik vəd edir? **Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, həmin danışıqlarda Cənubi Qafqaz və Qarabağ münaqişəsi müzakirə mövzusu olmayıb:** "Rusiya ilə ABŞ arasında olan gərginliyin aradan qaldırılması, münasibətlərin yaxşılaşdırılması barədə məlumat yayılıb. Əlbəttə, iki dövlət arasındakı gərginliyin azaldılması bizim üçün də əhəmiyyətlidir. Çünki bu münasibətlər postsovet məkanında olan dondurulmuş münaqişələr və Dağlıq Qarabağ probleminin həllinə də təsir edə bilər. Bu məsələdə həddindən artıq optimist olmağa da dəyməz. Çünki Tramp Şimali Koreya lideri ilə danışdıqları ilə bağlı necə mühakimə yürüdürsə, Putinlə bağlı da eynilə edir. Münasibətlərin yaxşı olacağına inanmaq üçün tərəflər ciddi addımlar atmalıdır. ABŞ sanksiyaları aradan qaldırmalıdır, Rusiya isə işğal etdiyi və ya işğalına yardımçı olduğu ərazilərdən geri çəkilməlidir. Bura Ukrayna, Gürcüstan və Azərbaycanın da ərazi bütövlüyünün bərpası aiddir. Hələlik bu istiqamətlər üzrə tərəflər arasında ciddi razılıq əldə olunmayıb. Hesab edirəm ki, bu məsələdə tələsik rəylər vermək lazım deyil. Çünki Putin görüşə gedərkən yeni silahlarla bağlı bir çarx təqdim etdi. Bunun özü ABŞ-a əzələ nümayişi idi. Görünən budur ki, silahlanma Rusiya tərəfindən tam gücü ilə aparılır. Sülh əldə olunursa, bu nəyə lazımdır? Danışıqların nəticəsi ilə bağlı dünyada təhlükəsizliyin təmin olunmasının vacibliyinə dair ritorik ifadələrdən istifadə edilib. 90 dəqiqə ərzində hansısa ciddi nəticənin əldə olunduğuna inanmıram.

Danışıqların xoş əhval-ruhiyyədə keçməsi gələcək danışıqlarda fundamental məsələlərlə bağlı razılığın əldə olunmasına köməklik edəcək. Həmin konkret nəticələr olacağı halda, biz Qarabağ probleminin həlli ilə bağlı optimist düşünə bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

**Bu gün Azərbaycan xalqının yetişdirdiyi nadir və böyük ziyalılarımızdan biri - akademik Cəlal Əliyevin doğum günüdür. Cəlal müəllim təkcə doğum günlərində deyil, hər gün xatırlanmağa haqqı olan, özünə əbədi xatirə qazanmış bir şəxsiyyətdir. Cəlal müəllim hamıya örnək ola biləcək bir həyat yolu keçib.**



# Həmişə yerin görünəcək, Cəlal müəllim!..

Mən ondan cox çey öyrənmişəm, həyat dərsi almışam.

O, mətin və qayğıkeş bir şəxsiyyət idi. Mübariz, prinsipial, sərt olduğu qədər də həssas idi.

Həmişə vurğulayırdı ki, yalnız alimin və ziyalının yox, ümumiyyətlə hər kəsin öz yolu olmalıdır. adamın özünəməxsus xarakteri olmalıdır. Onunla xarici səfərlərə getmişəm. Azərbaycanın rayonlarını gəzmişəm, seçiciləri ilə görüşlərində iştirak etmişəm…

Novruz bayramı ərəfəsində anası İzzət xanımın məzarını ziyarət edərdi. Xatırlayıram ki, atası Əlirza kişi ilə birlikdə Naxçıvanın taxıl zəmilərində başaq toplamasından danışarkən gözləri dolurdu. Bəlkə də onun taxılçılığa olan həvəsinin bünövrəsi həmin vaxtlarda qoyulmuşdu.

Cəlal müəllim yaltaq adamları sevməzdi və belələrini yaxına buraxmırdı. Deyərdi ki, insan həyatdakı yerini özü müəyyənləşdirməlidir…

Onun Heydər Əliyevə olan sonsuz sədaqətindən günlərlə, aylarla danışmaq olar.

Bu gün hamı etiraf və qəbul edir ki, Heydər Əliyevin hakimiyyətə qayıdışının əsasında Cəlal müəllimin də qeyri-adi fədakarlığı dayanır. Deyirdi ki, qardaşım olduğu üçün demirəm. Heydər kimi şəxsiyyətlər dünyaya min ildən bir gəlir. Azərbaycan tarixində onunla rəqabət apara biləcək ikinci bir dövlət adamı yoxdur.

Azərbaycan elmində öz məktəbini yaradan Cəlal müəllim həm də kişilik, mərdlik məktəbidir.

40 ilə yaxın tanışlığım dövründə mən Cəlal müəllimi dərindən kəşf etməyə çalışdım. Onun haqqında danışanda həmişə bir həqiqəti təkrarlamaq istərdim:Cəlal müəllim dürüst, fədakar, ədalətli və qorxmaz insan idi. O, həyatının bütün mərhələlərində eyni əxlaq, eyni prinsiplə yaşayıb. Çətinliklərə, məhrumiyyətlərə, haqsızlığa baxmayaraq, ruhdan düşməyib, əqidəsindən bir addım da geri çəkilməyib, O heç kimdən, heç nədən çəkinməyən, qorxmaz, əyilməyən, məğrur bir şəxsiyyət idi.

O hər bir işə vətəndaşlıq yanğısı ilə yanaşırdı. Cəlal müəllim hər şeydən əvvəl böyük vətənpərvər idi. Akademik Vətənini sevən, dövlətinə vicdanla qulluq edən, torpağımıza, respublikamızım suverenliyinə qarşı çıxanlara münasibətdə çox barışmaz olub.

Azərbaycan cəmiyyəti Cəlal Əliyevi ümummilli liderimiz Heydər Əliyevin yaxın silahdaşı, əqidə yoldaşı və mübariz bir insan kimi tanıyır. O bütün qanı və canı ilə dövlətə, dövlətçiliyə, Heydər Əliyevə, Heydər Əliyevçiliyə bağlı olan insan idi. Cəlal müəllim fədakar qardaş, fədakar ictimai xadim idi. Onun Heydər Əliyevə olan münasibəti ilə Azərbaycan uğrunda apardığı əzmkar mübarizə arasında paralellər də aparmaq olar. O həmişə Heydər Əliyevin yanında olub, çətin sınaqlarda və şərəfli dövlət quruculuğunda çiyin-çiyinə mübarizə aparıb. Kiçik qardaş kimi Cəlal müəllim Heydər Əliyevə, onun ailəsinə siyasi mərkəzdən yönləndirilən təzyiqlərə qarşı fərqli bir mövqe nümayiş etdirirdi, iftiralara, yalanlara, təhqirlərə dirəniş göstərən böyük mübarizə cəbhəsi açmışdı. 1987-ci ildə Siyasi Bürodan istefa verəndən dərhal sonra Heydər Əliyevin əleyhinə yönəlmiş kampaniya onun yaxınlarından yan keçməmişdi. Mərkəzi və yerli mətbuatda qərəzli, təhqiramiz yazılar dərc edilirdi. "Pravda", "Sovet kəndi" və başqa qəzetlərdə Heydər Əliyevə və onun qardaşlarına saysız-hesabsız böhtan yağdırılırdı. Məqsəd aydın idi, Cəlal müəllimi zərərsizləşdirmək, susdurmaq. Görülən tədbirlər Cəlal müəllimi yolundan çəkindirə bilmədi. Onu tanıyanlar deyirdilər ki, Cəlal Əliyev çox cəsarətli şəxsiyyət olub. Heç nədən qorxmayaraq, həmin dövrdə qəzetlərdə yazılan böhtanların qarşısını cəsarətlə alır, bütün təzyiqlərə baxmayaraq, mübarizəsindən geri çəkilmirdi. Cəlal müəllim həyatının bütün mərhələlərini ədalət uğrunda mübarizəyə həsr etmişdi. İstər alim, istərsə də qardaş və hətta ictimai-siyasi xadim kimi Cəlal Əliyev yalnız bir missiyanı yerinə yetirirdi: haqsızlıqla barışmamaq, sınmadan, boyun əymədən yaşamaq. Həmişə dərin inam hissi və yorulmaq bilməyən fəaliyyəti ilə zəngin və qüdrətli Azərbaycan quruculuğunun ön sıralarında olub, ölkəmizin xoşbəxt gələcəyi naminə çalışıb. Ulu öndərimizin tərəfdarları Cəlal müəllimi yeriyən, döyüşən, canlı "Heydər Əliyev mərkəzi"hesab edirdi.



Cəlal müəllim yeganə elm xadimidir ki, Sovet İttifaqı Kommunist Partiyasının rəsmən buraxılmasından xeyli əvvəl Kommunist Partiyasından çıxmaq haqqında qərar qəbul etdi. O, 1991-ci ildə Elmlər Akademiyasının Partiya Komitəsinə ərizə yazaraq, könüllü olaraq partiya üzvlüyündən imtina etdi. Onun yazdığı ərizənin mətni bir daha sübut edir ki, Cəlal müəllim əsl vətənpərvər Azərbaycan ziyalısıdır. O, ərizəsində yazırdı ki, bütün 62 illik ömrü boyu xalqa, vətənə təmənnasız xidmət edib: "Sağlamlığımı, firavanlığımı, ailəmin səadətini elmə fəda etmişəm. Bəs nəticəsi nə olub? Partiya biletini özünə sipər edən cılız, ləyaqətsiz ünsürlərin təhqir və təqiblərinə məruz qalmışam. Bundan sonra partiyada qalmaq bütün bu cinayətlərdə, vəhşiliklərdə, günahsız qanlarda, xalqın alçaldılmasında iştirakçı olmaq və bu cinayətkar siyasətə tərəfdar çıxmaq deməkdir.

Onu yaxından tanıyanlar bilir ki, Cəlal müəllim çox sadə, hər cür dəbdəbədən, təmtəraqdan uzaq həyat tərzi keçirirdi. Şəxsi mənzili olmadığından, 40 yaşına kimi başqa evlərdə yaşamışdı.

Cəlal Əliyev qayğıkeş və sadə insan, humanist şəxsiyyət kimi də qəlblərdə silinməz iz buraxıb.

Onun böyüklüyü həm də sadəliyində, təvazökarlığında idi. O, imkanı daxilində insanlara qayğı, diqqət göstərib, neçə-neçə alimin, savadlı kadrların köməyinə çatıb, bir çox hallarda haqsızlıqlarla üzləşən elm fədailərinə arxa, dayaq olub, hər cür yardım göstərib, ancaq heç vaxt yaxşılıqlarını dilə gətirməyib, üzə vurmayıb. Azərbaycan elminin dünyada tanınmasında, təbliğində və beynəlxalq elmi təşkilatlarla əlaqələr qurulmasında bu böyük alimin misilsiz xidmətləri olub. Elmi ixtiraların dünyanın ən nüfuzlu elmi-tədqiqat institutlarında, iri sənaye müəssisələrində tətbiq olunmasında müstəsna xidmətləri var.

Mən onun Fəxri Xiyabandakı məzarını tez-tez ziyarət edir və onunla söhbət edirmiş kimi deyirəm:

Həmişə yeriniz görünəcək, Cəlal müəllim.

Allah Sizə rəhmət eləsin! Biz Sizi heç vaxt unutmadıq...

Doğum gününüz mübarək, Cəlal müəllim!

***Rizvan VAHABOV***
***YAP Siyasi Şurasının üzvü***

**Azərbaycanın artan tranzit əhəmiyyəti dünya miqyasında getdikcə daha çox diqqət cəlb etməkdə, bu istiqamətdə ölkəmilə işbirliyi artmaqdadır. Belə bir vaxtda kifayət qədər aktuallaşan məsələlərdən biri isə Xəzər dənizi-Qara dəniz marşrutunun inkişafı ilə bağlıdır. Hesab edilir ki, bu marşrutun reallaşması Azərbaycanın tranzit imkanlarının daha da genişlənməsinə gətirib çıxaracaq.**

# Azərbaycan üzərindən daha bir önəmli nəqliyyat dəhlizi işə salınır - Xəzərin tranzit imkanları Avropa və Mərkəzi Asiya ölkələrinin gündəmində...




Yeri gəlmişkən qeyd edək ki, indi Avropa strukturları da Türkmənistan, Azərbaycan, Gürcüstan və Rumıniyanın iştirak etdiyi Xəzər dənizi-Qara dəniz marşrutunun inkişafında maraqlıdır. Türkmənistan Sənaye və Kommunikasiya Nazirliyinin "Türkmənistan avtomobil nəqliyyatı" agentliyinin sədri Orazgəldi Suxanov bu marşlurtla region ölkələri arasında nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf edəcəyini vurğulayıb. Orazgəldi Suxanov Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə uğurla həyata keçirilmiş "Lapis Lazuli" multimodal nəqliyyat marşrutunu xatırladıb. O, həmçinin yeni nəqliyyat marşrutu - Xəzər dənizi-Qara dəniz layihəsinin reallaşması barədə məlumat verib. Yeni dəniz marşrutunun perspektivindən danışan Türkmənistan rəsmisi bu dəhlizin Avropa və Asiya ölkələri arasında əlaqələrin inkişafında əhəmiyyətini, onun bu yaxınlarda Avropa İttifaqının qəbul etdiyi Mərkəzi Asiya üçün Strategiyada rolunu qeyd edib.

Xatırladaq ki, bu günlərdə Buxarestdə keçirilən Xəzər dənizi-Qara dəniz beynəlxalq nəqliyyat marşrutu üzrə ekspert işçi qrupunun dördtərəfli görüşündə nümayəndə heyətlərinin üzvləri marşrut boyu bu ölkələrdəki nəqliyyat infrastrukturu ilə bağlı, həmçinin onun genişləndirilməsi perspektivlərinə dair informasiya mübadiləsi aparıblar. Xəzər dənizi-Qara dəniz dəhlizinin fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılmasına kömək edəcək milli səviyyədə normativ-hüquq aktlarının hazırlanması və tətbiq edilməsi, "Şərq-Qərb" istiqamətində iqtisadi əməkdaşlığın gücləndirilməsi məsələləri də müzakirə olunub. Məsələyə Rusiya da xüsusi maraq göstərir. Hətta Rusiyanın Şimali Qafqaz işləri üzrə naziri Sergey Çebotaryov bildirib ki, Xəzər dənizindəki limanları inkişaf etdirdikdən sonra Xəzər dənizi ilə Qara dənizi modernləşdirilmiş dəmir yolu və avtomobil yolları ilə birləşdirmək lazımdır:

"Belə alınır ki, yüklər Xəzər dənizindən birbaşa yollarla Qara dənizə, Novorossiysk, Krım və digər limanlara gedəcək. Bax, orada iqtisadiyyatın inkişafı üçün daha bir imkan yaranır. Təbii ki, bu, tranzit potensialıdır, amma eyni zamanda siyasi məqamdır. Ona görə də bu ideyanı həyata keçirmək üçün səylərimizə davam edəcəyik". Onun sözlərinə görə, Azərbaycan və Gürcüstan tranzit potensialını aktiv şəkildə inkişaf etdirir və Xəzər dənizi və Qara dəniz vasitəsilə kommunikasiya axınları yaradır.

Ekspertlər bildirir ki, Azərbaycanın yaratdığı tranzit imkanları qarşıdakı dövr ərzində də regiona marağın artmasına gətirib çıxaracaq. Ümumiyyətlə, Azərbaycan həmişə regionda qarşılıqlı əlaqələrin yaradılmasına güclü dəstək göstərib və "Şərq-Qərb", "Şimal-Cənub", eləcə də "Cənub-Qərb" nəqliyyat dəhlizlərini ərsəyə gətirməklə regionun tranzit potensialını əhəmiyyətli dərəcədə artırıb. Bu baxımdan, 2017-ci ildə istismara verilən Bakı-Tiflis-Qars dəmir yolu da xüsusi əhəmiyyət kəsb edir. Çünki o, təkcə iştirakçı ölkələri deyil, həm də qitələri birləşdirir. Bununla yanaşı, Azərbaycanın Ələt qəsəbəsində Beynəlxalq Dəniz Ticarət Limanının və onun Beynəlxalq Logistik Mərkəzinin tikintisi, eləcə də Azad İqtisadi Zonanın yaradılması Xəzər dənizi üzərindən tranzitin həyata keçrilməsinə böyük dəstək verir. Məhz bu fonda Xəzər dənizi-Qara dəniz marşrutunun ərsəyə gətrilməsi indi beynəlxalq miqyasda böyük diqqət cəlb edir.

Real vəziyyətin təhlili göstərir ki, hazırda Rumıniya özünün Konstansa limanının Xəzər və Qara dənizi birləşdirəcək nəqliyyat-tranzit dəhlizinin əsas və aparıcı halqalarından birinə çevrilməsi üçün bütün imkanlarını işə salıb. Konstansa limanı Türkmənistanın Türkmənbaşı limanından, eləcə də, Qazaxıstan və Özbəkistandan, digər Mərkəzi Asiya ölkələrindən Avropa bazarına göndəriləcək yüklərin əsas məntəqəsinə çevrilə bilər. Daşınma marşrutu xüsusi konteynerlərlə yüklərin Xəzər dənizi vasitəsilə Bakıya, oradan dəmir yolu vasitəsilə Batumi və yaxud Potiyə, buradan isə dənizlə Rumıniyaya göndərilməsini nəzərdə tutur. Xatırladaq ki, 2018-ci il mayın əvvəlində Türkmənbaşıda Türkiyənin "Gap İnşaat" şirkəti tərəfindən həyata keçirilən və dəyəri 1,5 milyard dollara başa gələn beynəlxalq multimodel dəniz limanı açılıb. Onun istismara verilməsi ilə Türkmənbaşıdan tarixi Böyük İpək yolu ilə Asiya və Sakit okean ölkələrindən, Rusiya, Azərbaycan və İran limanları vasitəsilə Avropaya yüklərin daşınması istiqamətində böyük imkanlar yaranır.

Özbəkistan da bu nəqliyyat marşrutunun aktiv iştirakçılarından birinə çevrilə bilər. Ümumiyyətlə, Özbəkistan çoxdan bəridir ki, bu nəqliyyat dəhlizi ilə maraqlanır və Mərsin limanı vasitəsilə Yaxın Şərq, Şimali Afrika və Avropaya çıxış yollarını arayır. Özbəkistan prezidenti Şavkat Mirziyoyev də bildirib ki, ölkəsi özbək yüklərinin tikilməkdə olan infrastrukturlar və Xəzər dənizindəki limanlar vasitəsilə Avropaya və geriyə daşınmasında maraqlıdır.

Analoji marağı taciklər də göstərir. Ekspertlərin qənaətincə, bütün Mərkəzi Asiya ölkələri Xəzər dənizi-Qara dəniz marşrutunda potensial maraqlı dövlətlər qismində çıxış edə bilərlər. Digər tərəfdən, bu layihədə Qara dəniz hövzəsi ölkələri, Rumıniya ilə yanaşı, Türkiyə, Ukrayna və Bolqarıstan da iştirak edə bilər. Hazırda bu istiqamətdə görülən işlər Azərbaycan üzərindən keçən daha bir vacib nəqliyyat dəhlizinin işə salıncağını göstərir.

***Nahid SALAYEV***

---

**Ermənistan hakimiyyəti Köçəryanın taladığı pulların izi ilə hətta gedib Maltaya da çıxa bilib. Erməni saytları yazırlar ki, Maltanın xarici işlər nazirinin həmin ölkəyə reallaşan səfəri sakit, səsli-küylü olmasa da, böyük əhəmiyyətə malik olub. Qeyd edilir ki, Malta rəsmisinin səfərində adı ofşor qalmaqalında hallanan Miqran Poqosyanın məsələsi də müzakirə olunub.**

# Paşinyanın xəfiyyələri Köçəryanın oğurlayıb Maltaya qaçırdığı sərvətlərin də izinə düşüb

## *Mehman Muradlı: "Miqran Poqosyanın hələ ki, Ermənistanın əlində olmaması prosesi çox uzadacaq"*



Onun adı bir neçə yüz milyon vəsaitin Maltada "yuyulması" ilə bağlı prosesdə keçib.

İş burasındadır ki, Miqran Poqosyan hazırda Rusiyaya sığınıb. Rusiya hakimiyyəti onu hələ Ermənistana təhvil verməyə tələsmir. Ofşor qalmaqalından sonra Poqosyan hətta deputat da seçilib, lakin Ermənistanda baş verən inqilab onun arzusunu ürəyində qoyub. Paşinyan hakimiyyəti dərhal ona cinayət işi qaldırıb. Bildirilir ki, Poqosyan, əslində, başqa adamların pullarını xaricə çıxarıb və bunun müqabilində kiçik faiz alıb. Erməni saytları yazırlar ki, Maltanın xarici işlər nazirinin səfəri ilə Rusiya səfirinin baş prokuror tərəfindən qəbul edilməsinin eyni günə düşməsi təsadüf sayıla bilməz. Ehtimal olunur ki, hər iki təmasda Köçəryanın oğurladığı pulların ölkəyə qaytarılması müzakirə edilib. Ermənistan hakimiyyəti ofşorlardakı pulları geri qaytara biləcəkmi?

**Hüquqşünas Mehman Muradlı qəzetimizə bildirdi ki, bunun üçün Köçəryanın işi ilə bağlı məhkəmə qərarı çıxmalıdır:** "Yeni məsələ həm hüquqi, həm də razılaşma əsasında öz həllini tapa bilər. Burada söhbət xırda adamdan və az məbləğdən getmir. Prosesdə eks-prezidentin adı keçirsə, deməli, ortada ciddi məbləğ var. Rusiya səfirinə Ermənistanın baş prokuroru bunu açıq dedi. Köçəryan istintaq və ya hakimiyyətlə danışığa gedə bilər. Yeni siyasi razılaşmaya əsasən özü Rusiyadakı və ya başqa yerdə olan əmlakını istənilən adamın adına keçirə bilər. Və ya satıb həmin pulu Ermənistanın büdcəsinə ödəyər. Bununla da ona qarşı ittihamlar bir qədər yumşaldılar. Malta ilə bağlı məsələ isə bir qədər fərqlidir. Çünki həmin işdə başqa adamın adı keçir. Həmin adam hazırda Rusiyadadır. Moskva onu asan yolla Ermənistana verməyəcək. Rusiyanın da müəyyən şərtləri olacaq. Poqosyanın həyata keçirdiyi əməliyyatlar çoxdan olub. Yeni ola bilər ki, o, Ermənistana təhvil veriləcəyi halda, belə pulu geri qaytarmaq istəməz. Ermənistan hakimiyyəti və hüquq-mühafizə orqanlarının davranışlarından görünür ki, onlar Köçəryanla bağlı cinayət işinə çoxlu sayda adam cəlb etmək istəyirlər. Yəqin ki, Malta rəsmiləri ilə aparılan danışıqlarda məsələ müzakirə edilib. Bir daha xatırladıram ki, həmin pulun ölkəyə gətirilməsi asan deyil.

*"Həmin pulların Ermənistana tez bir zamanda qaytarılacağı real görünmür"*

Ortaya ciddi dəlillər qoyulmalıdır. Miqran Poqosyanın da hələ ki, Ermənistanın əlində olmaması prosesi çox uzadacaq. Həmin pulların Ermənistana tez bir zamanda qaytarılacağı real görünmür".

***Məhəmmədəli QƏRİBLİ***

# Əmanət və kredit faizləri arasındakı böyük fərq niyə hələ də aradan qalxmır?

**Məlum olduğu kimi, Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası Maliyyə Bazarlarına Nəzarət Palatası və Mərkəzi Bankla razılaşdırılmaqla 1 iyul 2019-cu il tarixindən etibarən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddini 10%, xarici valyutada isə 2,5% müəyyən edib.**

Əmanətlərin Sığortalanması Fondu bildirir ki, 1 iyul 2019-cu il tarixinədək qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi milli valyutada 15%, xarici valyutada isə 3% təşkil edir və bu qaydaya uyğun qorunan əmanət statusunda olan depozitlərin sığortası əmanət müqaviləsinin müddəti bitənədək qüvvədə qalır.

1 iyul 2019-cu il tarixindən etibarən Əmanətlərin Sığortalanması Fonduna üzv olan banklarda milli valyutada 10%-dən, xarici valyutada 2,5%-dən yuxarı illik faiz dərəcəsi ilə əmanət yerləşdirilərsə, bu əmanətlər Fond tərəfindən sığorta olunmur və onlara görə kompensasiya ödənilmir. Əmanətçilər əmanətlərin sığortalanması üçün heç bir ödəniş etmir, sığorta haqları yalnız banklar tərəfindən ödənilir. İndi maraq doğuran məsələ baş verənlərin bank sektoruna hansı formada təsir edəcəyi, eyni zamanda, baş verənlərin banklar tərəfindən verilən kreditlərin faiz dərəcəsinə necə təsir göstərəcəyidir. Qeyd edək ki, Azərbaycan banklarının əmanət və kredit faizləri arasındakı fərq daim aktual olub. Belə ki, aparıcı banklar artıq xarici valyutada olan əmanətlərə illik 0.1 faiz dividend təklif edir. Bəzi banklarda, hətta avro depozitləri dividendsiz qəbul olunur. Manat əmanətləri də cəlbediciliyi itirməkdədir. İllik əmanətlər 7 faiz gəlir gətirir. Bununla belə, illik 7 faizlik əmanət qəbul edən banklar kreditləri 30 faizdən az vermir. Əmanətlərin Sığortalanması Fondunun qərarından sonra bankların hansı addım atacağı isə xüsusi maraq doğurur. Bu məsələ ətrafında ekspert fikirləri bir-birindən fərqlənir. Məsələn, iqtisadçı Vüqar Bayramov sosial şəbəkələr üzərindən paylaşdığı şərhində göstərir ki, əmanət faizləri azalsa da, kredit faizləri yüksək olaraq qalır: "Mərkəzin Bankın məlumatına görə, kredit qoyuluşları 12 milyard 861 milyon, əhalinin əmanətləri isə 8 milyard 622 milyon manatdır. Bu o deməkdir ki, əmanətlər kredit portfelinin 67 faizini təşkil edir. Sadə müqayisə aparsaq, banklar kredit kimi təklif etdikləri hər 100 manatın 67 manatını vətəndaşın özündən alıb sonra yüksək faizlə digər vətəndaşımıza verirlər. Sistem əhəmiyyətli banklarda manatla depozitlərə 7 faiz təklif olunsa da, kredit faizləri 29 faizədək yüksəlir. Deməli, bank bir vətəndaşdan 7 faizlə əmanət cəlb edib, onu üzərinə 22 faiz əlavə edərək digər vətəndaşımıza kredit kimi təklif edir. Əmanətlərin qorunan faizləri azaldıqdan sonra kredit faizlərinin aşağı salınması istiqamətində fəaliyyətinin genişləndirilməsinə və ən əsası, bank sektorunda rəqabətin gücləndirilməsinə ehtiyac var".

Digər ekspertlər də hesab edir ki, kredit faizləri ilə bağlı vəziyyət qənaətbəxş deyil. Çünki kredit faizləri yüksəkdir. Kredit faizlərinin yüksək olması son nəticədə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi istiqamətində strategiya ortaya qoyan hökumətin planlarına da neqativ təsir göstərir. Ən azı o baxımdan ki, bu, maliyyə çıxış imkanlarını məhdudlaşdırır. Hesab edilir ki, vəziyyətdən çıxış yolu kimi müəyyən ajddımların atılması, lazım gələrsə, banklara inzibati yola təsir göstərilməsi həyata keçirilməlidir. Məsələn, faktdır ki, bankların hazırda maliyyə mənbələrinə çıxış imkanları da məhduddur. Bu özünü daha çox mərkəzləşmiş kreditlərdə göstərir. Burada müxtəlif səbəblər var. Səbəblərdən biri odur ki, banklar götürdükləri vəsaitləri yerləşdirə bilmirlər. Bu səbəbdən də vəsait cəlb etməkdə maraqlı deyillər. İkinci səbəb isə ondan ibarətdir ki, banklar daha genişləndirilmiş kredit siyasəti həyata keçirərkən belə mərkəzləşmiş kreditlərdən kifayət qədər yararlana bilmirlər. Bu səbəbdən bankların mərkəzləşmiş kreditlərə çıxışının asanlaşdırılması vacib sayılır. Araşdırmalar göstərir ki, Mərkəzi Bankın mərkəzləşdirilmiş kreditlərinin həcmi bankların cəlb etdiyi kreditlərin cəmi 7 faizini təşkil edir. Bu da bankların vəsaitin 93 faizini kənardan cəlb etməsi deməkdir. Bu baxımdan kənar mənbələrin sayının çox olması cəlb edilən kredit resurslarının bahalı olmasına səbəb olur ki, son nəticədə kredit faizləri yüksəlir. Nəzərə alaq ki, banklarda faiz dərəcəsinin yüksək olmasının səbəblərindən biri də yerli bankların beynəlxalq kredit reytinqinin yüksək olmaması ilə bağlıdır. Beynəlxalq kredit reytinqinin yüksək olmaması banklara birbaşa kredit resurslarına müraciət etmək şəraiti yaratmır. Banklar adətən vasitəçilər tapmaqla kredit resursları əldə etməyə çalışırlar. Bu da faizlərin artımına təsir edir. Belə ki, bu zaman cəlb edilən vəsaitlərin üzərinə əlavə vasitəçi faizi əlavə edilir ki, bu da kredit xərcini artırır. Buna görə də Mərkəzi Bank ucuz resurslarla bankların kredit xərclərinin azalmasına və faiz dərəcələrinin aşağı düşməsinə nail ola bilər. Əks təqdirdə əmanət faizləri ilə kredit faizləri arasında fərq yüksək olaraq qalacaq.




Əmanətlərin Sığortalanması Fondunun son qərarına gəlincə, bunun digər tərəfləri də var. Vüqar Bayramov sosial şəbəkələr üzərindən paylaşdığı şərhində bu xüsusda qeyd edir: "Fondun qərarına əsasən, 1 iyul 2019-cu il tarixindən etibarən banklarda yerləşdirilən və 10-dan çox faiz təklif edən əmanətlər qorunmur. Yəni vətəndaşımız 11 faizlə bankda kredit yerləşdirsə və o bank müflis olsa, o zaman onun depoziti qorunmuş hesab edilməyəcək. Buna görə də, vətəndaşlarımız əmanət yerləşdirən zaman bu halı nəzərə alsalar yaxşı olar. Qorunan əmanətlər üzrə yuxarı həddin 10 faizədək azaldılmasına baxmayaraq, əvvəlki dövrdə 10 faizədən çox, 15 faizdən az olan milli valyutadakı əmanətlər müavilə müddətində qorunmuş hesab olunacaq. Məsələn, vətəndaşımız ötən ay bankda 1 illik 14 faizlə milli valyutada əmanət yerləşdirib və bu gündən qorunan əmanətlər üzrə yuxarı hədd 10 faizədək azaldılıb. Buna baxmayaraq, həmin əmanət qorunmuş hesab olunur. Əvvəlki dövrdə milli valyutada 10 faizdən çox qorunan əmanət yerləşdirən vətəndaşımız müqavilə bitən zaman yeni müqavilə bağladıqda qorunan əmanət seçməsi vacibdir. Belə ki, müddət bitəndən sonra müqavilə əvvəlki şərtlərlə uzanırsa, bu zaman o əmanət qorunmayan əmanətə çevrilir. Məsələn, ötən ay 14 faizlə milli valyutada əmanət yerləşdirən vətəndaşımız 2020-ci ilin iyun ayında müqaviləni yeniləyən zaman o dövrdəki qorunan əmanət faizlərini nəzərə almalıdır ki, vəsaiti sığortalansın. Əvvəlki banklar, xüsusən də "Dəmirbank" müflis olan zaman müqavilə müddəti avtomatik uzadılan bir sıra sığortalanan əmanətlərin qorunmayan əmanətə çevrilməsi praktikası var.

**Qorunan əmanətlərin yuxarı həddinin 10 faiz olması 12 faizlik depozitdə 10 faizin sığortalanması anlamına gəlmir. Bizə olan müraciətlər də göstərir ki, bəzi hallarda bu məsələdə qeyri müəyyənliklər olur. Bütövlükdə, bu gündən etibarən bankda yerləşdirilən və 10 faizdən çox dividend təklif edən heç bir milli valyutada olan əmanənət sığortalanmayacaq. Bu baxımdan, vətəndaşlarımızın öz vəsaitlərini qorunan depozit kimi yerləşdirməsi daha məqsədəuyğundur".**

*Tahir TAĞIYEV*

# BP SOCAR-la BOTAŞ-ın arasında... Dünya nəhənginə kimin payından pay tutulacaq?

**BP şirkəti TANAP kəmərinin istismarı üzrə SOCAR-la BOTAŞ-ın yaratmaq istədiyi birgə şirkətə qoşulmaq üçün müraciət edib. Bu barədə Türkiyə mətbuatına istinadən məlumat yayılıb. Məlumatda qeyd edilir ki, layihə üzrə iki tərəfdaş şirkət - SOCAR və BOTAŞ birgə müəssisənin - paritet əsaslı qaz kəməri operatorunun yaradılması barədə razılığa gəliblər.**




***Rəsul Cahangirli:** "Buna razılıq verilərsə, o zaman hər bir tərəf bərabər şəkildə öz səhmlərini qarşı tərəfə satar"*

Bu proses Bakı-Tiflis-Ceyhan neft kəmərindəki istismar qaydalarına uyğun olacaq.

Bu arada BP şirkəti prosesə yeni qoşulub. Ancaq hələ aydın deyil ki, BP SOCAR-ın, yoxsa BOTAŞ-ın səhmləri hesabına şirkətə daxil olmaq istəyir. Məlumata görə, sözügedən layihənin iştirakçıları olan SOCAR-la BOTAŞ bu məsələni müzakirə edirlər.

Qeyd edək ki, TANAP qaz kəməri ilə ilkin mərhələdə Türkiyəyə qaz tədarükü ötən il başlayıb. TAP qaz kəməri hazır olduqdan sonra Avropaya qaz ötürüləcək. Bu isə gələn il gözlənir. TANAP "Şahdəniz" yatağından Azərbaycan qazını Türkiyə və Avropaya tədarük etmək üçün yaradılan "Cənub Qaz Dəhlizi"nin bir hissəsidir.

Maraqlıdır, sözügedən müraciət qəbul olunarsa, BP-yə pay kimin səhmlərindən ayrılacaq?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu, tərəflərin razılığından asılı olacaq: "SOCAR-la BOTAŞ TANAP kəmərinin istismarı üzrə birgə şirkətin yaradılması ilə bağlı danışıqlar aparırlar.** Ötən il Türkiyədə TANAP-ın açılışı olandan sonra bu məsələ gündəmə gəlib. O vaxtdan tərəflər arasında bununla bağlı danışıqlar gedir. İndi məlum olub ki, BP şirkəti də TANAP kəmərinin istismarı ilə bağlı şirkətdə iştirak etmək istəyir. Belə olduqda aydın məsələdir ki, səhm paketinə dəyişiklik edilməlidir. Çünki SOCAR-la BOTAŞ paritet əsaslı qaz kəməri operatorunun yaradılması barədə razılığa gəliblər. Üçüncü tərəf bu işə qoşulursa, o zaman, təbii olaraq, səhm paketinə yenidən baxılması reallığı ortaya çıxır. Bunun hansı formada həyata keçirilməsi isə SOCAR-la BOTAŞ-ın razılığından asılı olacaq. Bunu indidən konkret demək çətindir. Gərək bununla bağlı rəsmi qərar olsun. Mənə elə gəlir ki, BP-nin TANAP kəmərinin istismarı üzrə birgə şirkətə daxil olmasına razılıq verilərsə, o zaman hər bir tərəf bərabər şəkildə öz səhmlərini qarşı tərəfə satar.

*"Proses başqa cür də ola bilər, amma bu, tərəflərin razılığından asılı olacaq"*

**Yəni bununla bağlı səhm payı bərabər bölünəcək. Proses başqa cür də ola bilər, amma bu, tərəflərin razılığından asılı olacaq. Ona görə də indidən konkret hansısa proqnoz vermək çətindir".**

***Vidadi ORDAHALLI***

# Bank əmanətləri üzrə dividend faizləri endirilir, banklarda əmanət saxlayanları nə gözləyir...

**Məlum olduğu kimi, iyulun 1-dən etibarən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 10 faiz, xarici valyutada isə 2,5 faiz müəyyən edilib. Əmanətlərin Sığortalanması Fondundan verilən məlumata görə, iyilun 1-dən etibarən qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi milli valyutada 15%, xarici valyutada isə 3% təşkil edir və bu qaydaya uyğun qorunan əmanət statusunda olan depozitlərin sığortası əmanət müqaviləsinin müddəti bitənədək qüvvədə qalır.**




***Vüqar Bayramov:** "Qorunan əmanətlər üzrə yuxarı həddin 10 faizədək azaldılmasına baxmayaraq, əvvəlki dövrdə 10 faizdən çox, 15 faizdən az olan..."*

Həmçinin, iyulun 1-dən Əmanətlərin Sığortalanması Fonduna üzv olan banklarda milli valyutada 10 faizdən, xarici valyutada 2,5 faizdən yuxarı illik faiz dərəcəsi ilə əmanət yerləşdirilərsə, bu əmanətlər ƏSF tərəfindən sığorta olunmur və onlara görə kompensasiya ödənilmir.

Onu da qeyd edək ki, əmanətçilər əmanətlərin sığortalanması üçün heç bir ödəniş etmirlər, sığorta haqları yalnız banklar tərəfindən ödənilir.

Bütün bunların fonunda, məlum qərarın bankda əmanəti olan vətəndaşlara ziyanı olacaqmı?

Sözügedən məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Vüqar Bayramov bununla bağlı bir sıra məqamlara toxundu: "Qorunan əmanət faizlərinin yuxarı həddinin azaldılması birbaşa banklarda depozitlər üzrə dividendlərin son 1 ildə aşağı düşməsi ilə bağlıdır. Hazırda aparıcı banklar manat üzrə əmanətlərə 7 faiz dividend təklif edirlər. Fondun qərarına əsasən, iyulun 1-dən etibarən banklarda yerləşdirilən və 10-dan çox faiz təklif edən əmanətlər qorunmur. Yəni vətəndaşımız 11 faizlə bankda əmanət yerləşdirsə və o bank müflis olsa, o zaman onun depoziti qorunmuş hesab edilməyəcək.

Buna görə də vətəndaşlarımız əmanət yerləşdirən zaman bu halı nəzərə alsalar yaxşı olar. Digər tərəfdən, qorunan əmanətlər üzrə yuxarı həddin 10 faizədək azaldılmasına baxmayaraq, əvvəlki dövrdə 10 faizdən çox, 15 faizdən az olan milli valyutada olan əmanətlər müqavilə müddətində qorunmuş hesab olunacaq.

Məsələn, vətəndaş ötən ay bankda 1 illik 14 faizlə milli valyutada əmanət yerləşdirib və bu il iyulun 1-dən qorunan əmanətlər üzrə yuxarı hədd 10 faizədək azaldılıb. Buna baxmayaraq, həmin əmanət qorunmuş hesab olunur. Əvvəlki dövrdə milli valyutada 10 faizdən çox qorunan əmanət yerləşdirən vətəndaşımızın müqavilə bitən zaman yeni müqavilə bağladıqda qorunan əmanət seçməsi vacibdir.

Belə ki, müddət bitəndən sonra müqavilə əvvəlki şərtlər uzanırsa, o zaman əmanət qorunmayan əmanətə çevrilir. Məsələn, ötən ay 14 faizlə milli valyutada əmanət yerləşdirən vətəndaşımız 2020-ci ilin iyun ayında müqaviləni yeniləyən zaman o dövrdəki qorunan əmanət faizlərini nəzərə almalıdır ki, vəsaiti sığortalansın. Ən nəhayət, qorunan əmanətlərin yuxarı həddinin 10 faiz olması 12 faizlik depozitdə 10 faizin sığortalanması anlamına gəlmir.

*"Vətəndaşların öz vəsaitlərini qorunan depozit kimi yerləşdirməsi daha məqsədəuyğundur"*

**Bizə olan müraciətlər də göstərir ki, bəzi hallarda bu məsələdə qeyri-müəyyənliklər olur. Bütövlükdə, iyulun 1-dən etibarən bankda yerləşdirilən və 10 faizdən çox dividend təklif edən heç bir milli valyutada olan əmanət sığortalanmayacaq. Bu baxımdan, vətəndaşların öz vəsaitlərini qorunan depozit kimi yerləşdirməsi daha məqsədəuyğundur".**

***Vidadi ORDAHALLI***

# Paşinyan nəhayət ki, Qarabağ separatçılarının liderini istintaqa cəlb edə bildi: "DQR" - Ermənistan münasibətlərinin mahiyyəti kəsinliklə dəyişir

**Ermənistanın Xüsusi istintaq komitəsinin direktoru Sasun Xaçatryan son bir ildə rəhbərlik etdiyi qurumda "olduqca müsbət dəyişikliklərin baş verdiyini, lakin bu barədə heç bir şərh verməyəcəyini" bildirib. Erməni KİV-nin verdiyi məlumata görə, jurnalistlərlə baş tutan təmasda media nümayəndələri prokurorluğun, əvvəlki illərdə olduğu kimi, yerində qaldığını və orada heç bir şeyin keyfiyyətcə dəyişmədiyni xatırladıblar.**



## **Elşən Həsənov:** *"Bako Saakyanı prosesə cəlb etmək isə klana meydan oxumaq anlamına gəlir"*

Onlar xüsusilə keçmiş prezident Robert Köçəryanla bağlı işdə prokurorluğun zəif rol oynadığını diqqətə çatdırıblar.

S.Xaçatryan bu barədə verilən sualların yanlış olduğunu və buna yanlış cavab vermək istəmədiyini söyləməklə kifayətlənib.

Jurnalistlərin 2008-ci il martn 1-də Serj Sarkisyanın prezident seçilməsinə etiraz etmək üçün küçələrə çıxan nümayişçilərə divan tutulması ilə bağlı Qarabağ separatçılarının lideri Bako Saakyanın istintaqda dindirilməsi ilə əlaqədar sualına isə S.Xaçatryan belə cavab verib: "Bu gün bayramdır (Ermənistanda prokurorların bayramıdır - red.). Gəlin bundan danışaq. Mən bununla bağlı gedən məlumatları nə təkzib, nə də inkar edirəm".

Faktiki olaraq separatçıların liderinin də Köçəryanın işi üzrə istinaqa cəlb edildiyi rəsmən etiraf edilib. Bunun Ermənistandakı daxili vəziyyətə və xüsusilə də qondarma "DQR"lə Paşinyan hakimiyyəti arasındakı münasibətlərə nə kimi təsiri olacaq?

**Ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu artıq tərəflər arasında konfliktin son mərhələsidir:** "Bilirsiniz ki, Ermənistanda daxili vəziyyət çox gərgindir. Orada açıq müstəvidə klan davası gedir. Paşinyan köhnə klanı devirib, ancaq bilir ki, tam məhv edə bilməyib. Hətta vəziyyət o yerə çatıb ki, Paşinyanın öz hakimiyyətində təmsil olunan kadrlar belə ona qarşı getmək, köhnə klanın nümayəndələrinə açıq dəstək vermək kimi iradə ortaya qoyurlar. Biz bunun bariz nümunəsini Köçəryanın həbsdən zaminə buraxılmasında gördük. Həmin prosesdə, faktiki olaraq, bu gün Köçəryanla cinayət ortağı kimi adı keçən Bako Saakyan birbaşa iştirak edib. Sonra Rusiya və köhnə klan nə qədər çalışdısa, Köçəryanı azadlıqda saxlaya bilmədi. Paşinyan bilir ki, Köçəryana görə ona təzyiqlər çox olur və olacaq. Ancaq bu məsələdə sona kimi gedir. Bako Saakyanı prosesə cəlb etmək isə klana meydan oxumaq anlamına gəlir. Bu, eyni zamanda, Rusiyaya verilən mesajdır. Çünki qondarma "DQR" rəhbərliyi Paşinyandan çox Rusiyanı eşidir. Bununla Paşinyan demək istəyir ki, qondarma qurumdakı rəhbərliyi də dəyişmək niyyətindədir və buna gücü çatar. Hələlik Saakyanın istintaqa hansı şəxs qismində cəlb edildiyi məlum deyil. Ancaq hadisələrin gedişi onunla bağlı veriləcək qərara da təsirini göstərə bilər. Paşinyan hakimiyyəti açıq şəkildə Köçəryandan Rusiyada gizlətdiyi pulları tələb edir. Bununla klanı maliyyədən kəsmək istəyir. Bütün bu gedişatlar köhnə klanı tam ram etməyə hesablanıb. Hadisələrin gedişi onu deməyə əsas verir ki, Ermənistandakı vəziyyət daha da dramatik hal alacaq.

Çünki dalaşan klanlar bir-birinə güzəştə getmək istəmir. Yəqin ki, Rusiyanın dəstəyini qazanacaq köhnə klan Paşinyanın üzərinə daha cəsarətli gedəcək. Bir sözlə, Ermənistanda hər an vətəndaş qarşıdurması yaşana bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməniprəstlikdə ad çıxarmış məşhur Zatulin klubu da Paşinyandan imtina etdi

**Rusiya Dövlət Dumasının deputatı, MDB ölkələri institutunun rəhbəri, "Lazarev klubu"nun koordinatoru Konstantin Zatulin erməni-rus əlaqələrini şərh edərkən deyib ki, iki ölkə münasibətləri Nikol Paşinyanın komandasının bacarıqsızlığından əziyyət çəkir: "Paşinyanın komandası Ermənistanda yeni siyasi qeyri-sabitlik təhlükəsi yaradır.**



## **Elşən Manafov:** *"Rusiya Zatulinin dili ilə Paşinyan hakimiyyətinə, Qərbə mesaj verir ki, Kreml Ermənistanın itirilməsinə razı olmayacaq"*

Qeyd edilən hadisələrə görə tam qarşılıqlı anlaşma və əminlik haqqında danışmaq mümkün deyil".

Onun sözlərinə görə, hazırda erməni-rus əlaqərinin bütün arxitekturası seysmiklik üzərində ifadə edilir: "Paşinyanın komandasının kifayət qədər olmayan yurisdiksiyası və siyasi yanaşması Ermənistanda yeni siyasi qeyri-sabitlik təhlükəsi yaradır. KTMT baş katibinin geri çağırılması məsələsi Rusiya və Ermənistan üçün vacib strateji birliyin nüfuzuna və konkret fəaliyyət proqramlarına zərbə vurdu. Yuxarıda qeyd edilən hadisələrə görə tam qarşılıqlı anlaşma və əminlik haqqında danışmaq mümkün deyil. Əlbəttə, bu, müxtəlif qaydada erməni-rus əlaqələrinin bütün arxitekturasının seysmikliyi üzərində ifadə edilir".

Göründüyü kimi, Paşinyan Baş nazir olandan sonra Rusiya-Ermənistan münasibətlərində yaşanan soyuqlaşma, pisləşmə müxtəlif formada özünü göstərir. Vəziyyət o yerə gəlib çatıb ki, hətta "Lazarev klubu" da Paşinyana qarşı əks cəbhədə yer alır və bunu açıq formada bəyan etməkdən çəkinmir. Qeyd edək ki, sözügedən siyasi klubda Rusiyanın bir sıra erməniprəst siyasiləri təmsil olunurlar. O baxımdan, "Lazarev klubu"nun da Paşinyana qarşı əks cəbhədə yer almasını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Zatulinin səsləndirdiyi tənqidi fikirlər təsadüfi deyil: "Məsələnin kökündə Cənubi Qafqaz uğrunda Rusiya və Qərb arasında getdikcə güclənməkdə olan rəqabət durur. Bir müddət əvvəl Gürcüstanda baş verən hadisələrin kökündə də bir sıra ekspertlər Kremlin barmağının olduğunu qeyd edirlər. Cənubi Qafqaz uğrunda mübarizə, bütövlükdə, Mərkəzi Asiya bazarlarına çıxmaq uğrunda mübarizə kimi qiymətləndirilir. Bu mübarizə həm də Ermənistanda daha çox Rusiyanın maraqlarını təmsil edən iqtidarın hakimiyyətdən kənarlaşdırılmasını nəzərdə tutur. Nəticə etibarilə Qərbin maliyyə və dolayısı olaraq siyasi dəstəyi şəraitində Ermənistanda Paşinyan hakimiyyət başına gəldi. Paşinyanı hakimiyyətə gətirən Qərb dairələri ondan növbəti addımların atılmasını gözləyirdilər. Ancaq bu baş vermədi. Bu səbəbdən Paşinyan hakimiyyətə gələndən sonra Qərb ona ciddi dəstək verməyib. Bu dəstək hələ ki, siyasi dəstəkdən o tərəfə keçmir. Ciddi maliyyə kreditlərinin ayrıldığını müşahidə etmirik. Səbəbi onunla bağlıdır ki, Paşinyan birmənalı Qərbpərəst siyasət yeritmir. Bu da Rusiyanın Ermənistanda olan təsir imkanları ilə bağlıdır. Ermənistan iqtisadi baxımdan Rusiyadan asılıdır, "Qarabağ klanı" Kremlə çox bağlıdır və s. "Qarabağ klanı" Ermənistan hakimiyyətinə qarşı Rusiyanın əlində ciddi təzyiq rıçaqıdır. Köçəryanın növbəti dəfə həbsi Paşinyandan Rusiyaya yönəlik həmlədir. "Lazarev klubu"nun təmsilçisi olan Zatulinin də bu mənada açıqlamaları hazırda Rusiyanın Ermənistandakı maraqları ilə bağlı amillərdən irəli gəlir. Rusiya Zatulinin dili ilə Paşinyan hakimiyyətinə, Qərbə mesaj verir ki, Kreml Ermənistanın itirilməsinə razı olmayacaq. Bu, Paşinyana xəbərdarlıqdır ki, cızıqdan kənara çıxma. Onu da etiraf etmək lazımdır ki, Ermənistandakı hazırkı vəziyyət çox kövrəkdir. Bu hər an ölkədə müəyyən qarşıdurmaya gətirib çıxara bilər".

> *"Məsələnin kökündə Cənubi Qafqaz uğrunda getdikcə güclənməkdə olan rəqabət dayanır"*

***Vidadi ORDAHALLI***

# Qarabağ düyünü Ermənistanın regionda mövqeyini tam sarsıdan faktora çevrilir... Düşmən ölkəni indi də "Mehri panikası" bürüyüb...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqlarının Ermənistanın mövqeyi üzündən istənilən nəticəni verməməsi konfliktin güc müstəvsində həlli ehtimalını yüksəltməkdə davam edir. Digər tərəfdən, həm Ermənistan daxilində, həm də zəbt edilmiş Azərbaycan ərazisində yaradılan separatçı rejim sıralarında baş verənlər də savaşa əlavə zəmin yaradır.**

Çünki belə görünür, yaxın tezlikdə ermənilərin daxilində yaşanan ziddiyyət daha da dərinləşəcək və bu hal da məsələnin həllinə ciddi maneə yaradır. Ən azı o baxımdan ki, qarşı tərəf daxili ziddiyyətlər səbəbindən Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində konstrkutiv addımlar ata bilmir. Elə bu da müharibəni körükləyən başlıca faktorlardan sayılır. Qeyd edilən məqam ermənilərin özü tərəfindən də açıq etiraf olunur.

Hazırda "Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında artan qarşıdurma fonunda yeni savaşın başlaya biləcəyi ehtimalı bütün Ermənistanı bürüyüb. Erməni mediası yazır ki, Dağlıq Qarabağ bölgəsindəki separatçı rejimin daxilində çaxnaşma yaşanır. Səbəb odur ki, 2020-ci ildə separatçı rejim "prezident və parlament seçkilərini" eyni vaxtda keçirəcək. Rejimin "rəhbəri" Bako Saakyan postundan imtina etmək niyyətində deyil, lakin Ermənistan rəhbərliyi "Qarabağ klanı" ilə mübarizə kontekstində ona təzyiqlər edir. İrəvanın təzyiqi ilə Saakyan bir tərəfdən Paşinyana qarşı çıxan "kadr"ları təmizləyir, digər tərəfdən revanş addımları atır. İyunun 26-da separatçı "lider" "təhlükəsizlik şurasının katibi" postuna Arşavir Qaramyanı gətirdi. İyunun 11-də isə keçmiş "müdafiə naziri" olmuş "fövqəladə hallar naziri" Levon Mnasakanyanı "polis rəisi" təyin etdi. Bu dəyişikliklər Paşinyana qarşıdır. Erməni siyasi texnoloq Vigen Akopyan hesab edir ki, Qarabağda mümkün müharibəyə hazırlıq gedir: "Ermənilərin daxilində baş verənlər ciddi parçalanmanın göstəricisidir. Bu dəyişikliklər həm də Azərbaycanla müharibəyə hazırlığın bir hissəsidir. Azərbaycan baş verənləri yaxından izləyir və parçalanmış erməniləri daha asan şəkildə əzə biləcəyini aydın görür".

Hadisələrin inkişaf axarı isə savaşın yaxın tezlikdə başlana biləcəyini istisna etmir. Çünki Azərbaycan artıq danışıqlar prosesindən nəticə isətyir və bu olmayacağı təqdirdə hərbi əməliyyatlara start verəcəyini açıq bildirir. Erməni mediası yazır ki, Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun bu fonda səsləndirdiyi fikirlər də təsadüfi xarakter daşımır. Bildirilir ki, həmin bəyanatda şərhçilərin diqqətindən kənarda qalan bir nüans var: "Vaşinqton görüşündən sonra Elmar Məmmədyarovun bəyanatında şərhçilərin diqqətindən kənarda qalan bir nüans var idi. O bildirdi ki, "əsas danışıqlar erməni qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasından sonra başlaya bilər". Anlaşıldığı kimi, söhbət Dağlıq Qarabağ ətrafındakı ərazilərdən və Qarabağın özündən gedir. Məmmədyarovun bu bəyanatından sonra fikirlər səsləndi ki, öz müqəddəratını təyin etmək və Ermənistan-Dağlıq Qarabağ məhdudiyyətsiz kommunikasiya proqramının təmin olunması müzakirə edilirsə, o zaman Azərbaycan tərəfi Naxçıvanın "blokada" problemində təkid etməlidir. Yəni Ermənistan da Azərbaycan-Naxçıvan dəhlizinin maneəsiz fəaliyyətini təmin etməlidir. Deyəsən, Azərbaycan tərəfindən bu kimi analitik yanaşma son illərdə ilk dəfə dövriyyəyə buraxılır. Bakı əvvəllər Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Ermənistan-Dağlıq Qarabağ quru əlaqəsi razılaşması haqqında danışırdı. Hazırda belə bir iddia yoxdur. Ehtimal etmək olar ki, Bakıda ən azından ekspert səviyyəsində "Mehri" variantına qayıtmaq ideyası müzakirə olunur. Bundan başqa, Azərbaycanın ekspert cəmiyyəti tərəfindən olduqca maraqlı digər bir versiya irəli sürülüb. Versiyaya əsasən, hədsiz dərəcədə böyük ehtimal var ki, ABŞ-Türkiyə anlaşılmazlıqları getdikcə dərinləşəcək. Avropa İttifaqı da buna öz töhfəsini verəcək. Türkiyə isə Rusiya və Çinlə yeni Avrasiya geosiyasi alyansının formalaşdırılmasına məcbur qalacaq. Bir neçə azərbaycanlı ekspertin vurğuladığı kimi, bunun üçün Türkiyə və Rusiya arasında birbaşa quru kommunikasiya məsələsinin həll edilməsi lazım gələcək. ABŞ və Avropa İttifaqı Gürcüstan razılaşması üçün Bakı-Qars dəmiryol xəttinin Rusiyaya birləşməsinə icazə verməyəcək. Azərbaycanlı analitiklərin fikrincə, Türkiyə və Rusiya hazırda Mehri dəmiryol xəttinin yenidən fəaliyyətə başlaması ehtimalını müzakirə edir.

Buna baxmayaraq, problem yalnız işğal olunmuş ərazilərin azad edilməsindən sonra həll edilə bilər. Azərbaycanlı analitiklər belə bir fikir ifadə edib ki, bu problemin müzakirə olunması məqsədilə Moskva "Rusiya dəmiryolları"nın direktor müavini Maşarini İrəvana göndərib, lakin Ermənistanın baş naziri Nikol Paşinyan onları qəbul etməyib. Buna görə də azərbaycanlı analitiklər hesab edir ki, Azərbaycan Lələtəpə istiqamətində hərbi əməliyyatlara başlasa, Rusiya buna qarşı çıxmayacaq. Görünür, Azərbaycan Mehri variantına qayıtmaq üçün həll yolu təklif edir. Bu baş verməsə, o zaman Rusiyanın razılığı ilə Qarabağın cənubunda hərbi əməliyyatlar başlaya bilər. Bundan başqa, İlham Əliyev-Putin-Ruhani görüşünün gündəmində üç ölkənin dəmiryol xətlərinin birləşdirilməsi məsələsi də anonslaşdırılıb. Belə vəziyyətdə Azərbaycan təkcə Qarabağı yox, Mehrini də nəzarətinə qaytarmağı düşünür. Bunun üçün güc varinatından istfiadəyə hazırdır və görünən budur ki, Rusiya da Azərbaycanın bu addımlarına qarşı çıxmayacaq". Hadisələrin qeyd olunan istiqamətdə inkişafı yaxın tezlikdə Ermənistanı daha böyük zərbələrin gözlədiyini deməyə əsas verir.

Beynəlxalq hüquq və əlaqələr üzrə eskpert Suren Sarkisyan da hadisələrin məhz yuxarıda qeyd olunan ssenari üzrə inkiaşfını istsina etmir: "Ermənistan belə bir vəziyyətdə ən təhlükəli və ən mümkün inkişafa hazır deyil". Onun sözlərinə görə, Ermənistan təhlükəli və mümkün inkişafa heç 1 faiz belə hazır olmayan ölkə qismində çıxış edir: "Regionda baş verən inkişaflar istənilən an partlayış dərəcəsinə çata bilər. Bu o deməkdir ki, Ermənistan istənilən inkişaflara hazır olmalıdır. Əslində, Ermənistan belə bir vəziyyətdə ən təhlükəli və ən mümkün inkişafa hazır deyil. Bu mümkün ssenari ehtimalı bir faiz təşkil edirsə, o zaman Ermənistan çətinliklərə necə dözməklə bağlı bu bir faiz üçün strategiyaya malik olmalıdır". O qeyd edib ki, aydın ifadə edilmiş strategiyaya malik olmaq Ermənistan milli təhlükəsizliyinin təmin olunmasının problemidir və bu istiqamətdə fəal addımlar atılmalıdır: "Rusiya ilə əlaqələrdə ortaya çıxan problem təhlükəsizliymizə ciddi təhdid yaradır. Azərbaycan bundan məharətlə istifadə edir. Türkiyə faktoru da ön plana çıxır və Ankara Moskva ilə bütün regionu əhatə edən planlar cızır. ABŞ-İran gərginliyi də hadisələrə təsirsiz ötüşməyərək Ermənistanın regionda mövqeyini zəiflədir. Bir tərəfdən ABŞ dostumuzdur, digər tərəfdən İran qonşumuzdur. İrana qarşı tətbiq edilən sanksiyaları nəzərdə tutsanız, o zaman Ermənistan iqtisadiyyatına zərbə vurmuş olarsınız. Ermənistan mümkün ssenarilərə hazır olmalı və strateji əməliyyatlar planına malik olmalıdır. Ermənistanın isə belə bir planı yoxdur. Hökumət, ən azı, Təhlükəsizlik Şurasına bu məsələ ilə məşğul olmaq üçün icazə verməlidir, lakin Təhlükəsizlik Şurasının rəhbəri açıq şəkildə öz yerində deyil. Hesab edirəm ki, o, peşəkar hərbçi olmalıdır və hərbi, taktiki əməliyyatlar haqqında təsəvvürlərə malik olmalıdır. İndilikdə biz bunu müşahidə etmirik".

Ermənistan müdafiə nazirinin keçmiş müavini Artak Zakaryan da eyni mövqeni bölüşür. Onun sözlərinə görə, Paşinyan hakimiyyəti tərəfindən həyata keçirilən siyasət bir sıra mürəkkəbliklər yaradıb: "Hazırda problem hökumətimiz tərəfindən Qarabağın sülh yolu ilə nizamalanmasını nəzərdə tutan siyasətdir. Bu siyasət keçmişdəki aydınlıqları qarışıqlığa çevirib. Nisbi atəşkəs isə xarici siyasi-diplomatik amillər hesabına saxlanılıb. Birabaşa əlaqə məsələsi əvvəllər də mövcud idi, lakin onlar heç vaxt səmərəli olmayıb. Bunlar tərəflər üçün konkret vəziyyətlərdə bəzi problemlərin həll edilməsi və ya edilməməsi ilə bağlı ola bilər. Bu uzun sürən, sabit atəşkəsin təminatçısı deyil və ola da bilməz. Nisbi atəşkəs 25 il ərzində güc və xarici siyasi-diplomatik amillər hesabına saxlanıb. Münaqişənin nizama salınması prosesində bunlar eyni dərəcəli əhəmiyyətə malikdir. Amma qeyd etdiyim kimi, Paşinyan hakimiyyəti tərəfindən həyata keçirilən siyasət bir sıra mürəkkəbliklər yaradıb. İndi Ermənistana böyük dövlətlərin, xüsusən də Rusiyanın yanaşması fərqli xarakterə malikdir. Moskva Azərbaycan və Türkiyə ilə işbirliyinə daha çox meyllənir və burada İrəvanın buraxdığı səhvlərin rolu az olmayıb. Vəziyyət dəyişməsə, Ermənistanı yaxın tezlikdə daha böyük prolbemlər gözləyir. Bizi hətta güc yolu ilə buna vadar edə bilərlər". Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın gücə əl atması indi Ermənistanda ən böyük qorxu yaradan amillərdən biri sayılır.

Çünki ordumuzun qısa müddətdə düşməni darmadağın edəcəyini qarşı tərəfdə də yaxşı bilirlər. Beynəlxalq ekspertlər dəfələrlə bildiriblər ki, Azərbaycan ordusu bütün göstəricilərinə görə Cənubi Qafqazda ən güclü ordudur. Xüsusən də Ermənistan silahlı qüvvələrindən dəfələrlə qüdrətlidir. Məsələn, 2016-cı ilin məlum aprel döyüşlərində Azərbaycan Ordusunun kiçik bir hissəsi Ermənistan ordusunu darmadağın etdi. Həmin qısamüddətli döyüş göstərdi ki, Ermənistan ordusu Azərbaycan ordusundan dəfələrlə zəifdir. Həm təşkilati, həm silahlanma, həm də döyüş taktikası, strateji planlama kimi istiqamətlərdə erməni ordusu çox geridə qalır. Azərbaycan ordusu yenidən öz gücünü göstərəcyi təqdirdə isə düşmən tamamilə darmadağın olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycanın məcburi köçkünləri arasında yoxsulluq həddi 75 faizdən 12 faizə endi

**Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın həyat şəraitini daha da yaxşılaşdırıb. Onların müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür.**



## *Fikrət Yusifov: "Məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlərin həcminin artması onların maddi durumunun inkişaf etməsinə səbəb olub"*

Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər nəticəsində qeyd olunan kateqoriyadan olan insanlar arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalıb. Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov BMT-nin İnsan Hüquqları Şurasının 41-ci sessiyası çərçivəsində çıxış zamanı bildirib.

Sədr müavini Azərbaycanın əhalinin sayına nisbətdə ən çox məcburi köçkün və qaçqın əhalisi olan ölkələr sırasında olduğunu diqqətə çatdırıb: "Ermənistanın həyata keçirdiyi hərbi təcavüz, işğal və etnik təmizləmə siyasəti nəticəsində 250 min azərbaycanlı Ermənistandakı ata-baba yurdlarından qovulub və 700 min insan Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkün vəziyyətinə düşüb. Ötən müddət ərzində 300 min məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb, görülən tədbirlər nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalıb. Ümumilikdə, ötən müddət ərzində bu sahəyə 7,4 milyard ABŞ dollar məbləğində vəsait ayrılıb".

Ekspertlər məcburi köçkünlər arasında yoxsulluq səviyyəsinin 75 faizdən 12 faizə endirilməsinin gözlənilən olduğunu düşünürlər. Onların fikrincə, son illər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində çoxlu sayda iş görülüb.

*"...görülən işlər sayəsində bu qəbildən olan insanlar arasında yoxsulluq səviyyəsi azalıb"*

**İqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son illər məcburi köçkün və qaçqınların həyat tərzinin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən mühüm işlər görülüb:** "Xüsusilə də onların sosial təminatının gücləndirilməsi istiqamətində çox vacib layihələr həyata keçirilib. Eyni zamanda, bu qəbildən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər arasında onların mənzil şəraitinin yaxşılaşdırılmasını göstərmək olar. Bu istiqamətdə görülən işlər sayəsində məcburi köçkünlərin bir qismi mənzillə təmin olunub. Görülən işlərin hər biri qaçqın və məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırıb. Bu səbəbdən də məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 12 faizədək düşüb".

Həmsöhbətimiz onu da vurğuladı ki, məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlərin həcminin artması onların maddi durumunun inkişaf etməsinə səbəb olub. Bununla yanaşı, aidiyyəti qurumların dəstəyilə məcburi köçkünlər işlə təmin olunub. Bu sahədə görülən hər bir iş məcburi köçkünlər arasında yoxsulluğun azalmasına səbəb olub.

***Günel CƏLİLOVA***

# Bakı Metropoliteninin fəaliyyətində mübahisəli rəqəmlər - 54 milyonluq zərər haradan çıxdı?

**Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyəti illik maliyyə hesabatını açıqlayıb. Hesabata əsasən, bu il yanvarın 1-nə qurumun cəmi aktivləri 2 409,498 milyon manat təşkil edib. Bu rəqəm ötən il yanvarın 1-i ilə müqayisədə 4,8 faiz çoxdur.**



## *Azər Allahverənov: "Zərərin artması xərclərin böyük olması ilə bağlı ola bilər"*

O da məlum olub ki, Bakı Metropoliteni 2018-ci ilin yekunlarına görə dövlət büdcəsindən 48,8 milyon manat məbləğində (+8,4%) dotasiya almasına və avqustun 1-dən etibarən gediş haqqının 50 faiz artırılmasına baxmayaraq, 54 milyon 870 min manat (-11,8%) zərərlə işləyib.

Açıqlanan maliyyə hesabatına əsasən, ötən il sərnişin daşınmasından gəlirlər (54 milyon 186 min manat) 22,2 faiz artıb. Maliyyə zərərləri əsasən 85,1 milyon manat (+ 4,6 faiz) məbləğində amortizasiya ayırmalarından yaranıb. Bu ilin yanvar ayının 1-nə olan məlumata görə, Bakı Metropoliteninin ödənilməmiş zərəri 426 milyon manat (+ 14,7%) təşkil edir. Eyni zamanda, ötən il metroda əməkhaqqı həcmi 7,4 faiz artaraq 44,2 milyon manat təşkil edib. Ötən il metro işçilərinin orta sayı 5 min 750 olub.

Maraqlıdır, həm büdcədən Metropolitenə 49 milyon manata yaxın dotasiya verilib, həm də ötən ilin ortalarından gedişhaqqı 50 faiz artırılıb. Belə olan halda, qurum niyə ili 55 milyon manata yaxın zərərlə başa vrub?

Sözügedən məsələ ilə əlaqədar bir neçə dəfə Bakı Metropoliteninin mövqeyini öyrənməyə çalışsaq da, bu mümkün olmadı.

**Nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, zərərin artması xərclərin böyük olması ilə bağlı ola bilər:** "Məsələ ondadır ki, Bakı Metropoliteninin rəsmiləri də dəfələrlə öz çıxışlarında qurumun zərərlə işlədiyini dilə gətirirlər. Bu zərərdən çıxmağın yolunu həm də gedişhaqqının artırılmasında görürlər. Belə fikirlər səslənir ki, metronun zərərlə işləməsinin qarşısını almaq üçün gedişhaqqı 50 qəpik olmalıdır. Ancaq hazırkı şəraitdə qiymət artımı istehlakçılar üçün arzuedilən deyil. Zatən, ötən il metroda qiymətlər artırıldı. Ola bilər ki, sözügedən artım Metropoliteni tam qane etmir. Ancaq metrodan istifadə edənlərin sosial vəziyyəti də nəzərə alınmalıdır. Digər tərəfdən, hamı metroda xidmətin keyfiyyətinin artırılmasında maraqlıdır. Yeni qatarların sayının artması və s. Təbii ki,

*"Bu nəqliyyat sahəsinin bütün xərclərini istehlakçıların üzərinə yükləmək olmaz"*

bütün bunlar vəsait tələb edən məsələlərdir. Ancaq indiki şəraitdə Bakı Metropoliteninin zərərlə işləməsi qurumu çətin vəziyyətdə qoyur. Bu səbəbdən də dövlət bu sahəyə dotasiya ayırır. Ümumiyyətlə, Metropoliten nəqliyyat sahəsi olaraq kifayət qədər dotasiya tələb edən qurumdur. Ona görə də bu nəqliyyat sahəsinin bütün xərclərini istehlakçıların üzərinə yükləmək olmaz. Bu səbəbdən hələ ki, dotasiya olmalıdır. Çünki metroda gedişhaqqı çox artırılsa, o zaman hamı digər ictimai nəqliyyatdan istifadə edəcək və Bakı yollarında tıxac əlindən tərpənmək olmaz. Yeni metronun fəaliyyəti bu kimi təhlükələrin qarşısını alır. Gün ərzində 600-700 min nəfər metrodan istifadə edir. Hesab edirəm ki, bu böyük bir göstəricidir. Məhz bu səbəbdən də dövlət büdcəsindən metroya dotasiya ayrılmalıdır. Bütün bunlarla yanaşı, metroda xərclərin artması araşdırılmalıdır. Müxtəlif beyin mərkəzləri alternativ variantlar üzərində işləməlidirlər. Ancaq bu alternativlər qiymət artımı hesabına olmamalıdır".

***Vidadi ORDAHALLI***

# Qaçqın rayonunun İcra Hakimiyyəti üçün 200 minlik xidməti avtomobil?

**Kəlbəcər Rayon İcra Hakimiyyəti qurumun aparatı üçün "Mercedes Benz S 350" model minik avtomobilinin alınması üçün tender elan edib. Lüks "Mercedes"in alınması üçün tender elanı Nazirlər Kabinetinin orqanı olan "Respublika" qəzetində dərc edilib. İşğal altında olan və əhalisi məcburi köçkün qismində ölkənin müxtəlif rayonlarına səpələnən Kəlbəcərin İcra Hakimiyyətinin lüks avtomobil almaq planı sosial şəbəkələrdə tənqidlərə səbəb olub.**



## *İlqar Hüseynli: "Dövlətin pulunu bu şəkildə israf etmək olmaz"*

Sosial şəbəkələrdə qeyd edilib ki, məcburi köçkünlərin böyük əksəriyyətinin ehtiyac içində olduğu bir vaxtda İcra Hakimiyyətinin belə maşın alması və bunu elan olaraq yayması doğru deyil.

Qeyd edək ki, sözügedən avtomobilin yeni modelinin satış qiyməti 145 min dollardan (221 min manat) başlayır. Komplektləşdirmədən asılı olaraq avtomobilin qiyməti 200 min dollara qədər qalxa bilər. Bu, Avropa bazarlarında olan qiymətdir. Avtomobil alqı-satqısı üzrə ixtisaslaşmış yerli saytlarda bu modeldən olan ən yeni avtomobil 2018-ci il istehsalıdır, qiyməti 110 min dollara yaxın təklif olunur.

Bir qaçqın rayonuna belə fantastik qiymətdə avtomobil əldə etmək lazımdırmı?

**Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu cür amillər birbaşa büdcənin talanmasına xidmət edir:** "Bu qədər vəsaiti sərf edib hansısa avtomobili almağa heç bir ehtiyac yoxdur. Bunu almaq istəyənin qaçqın rayonu olduğu üzə çıxanda, təbii ki, narazılıqlar lap artmış olur. Ümumiyyətlə, tendensiya ona yönəlməlidir ki, biz maksimum büdcəyə qənaət edə bilək, əlavə israflara yol verməyək. Dövlət orqanlarında belə dəbdəbəli avtomobillərə çəkilən xərclərin qarşısı alınmalıdır. Bir qaçqın rayonunda dəyəri 200 min olan avtomobilin alınması həmin rayonun büdcəsinin talanmasına xidmət edir. Həmin məbləğə nə qədər məcburi köçkünün həyat səviyyəsini yaxşılaşdırmaq olar. Təhsildə uğur əldə edən şəxslərə əlavə təqaüdlər təsis etmək mümkündür. Biz digər sahələrdə də tender oyunları ilə büdcənin nə qədər talandığının şahidi oluruq. Vəsaitlərin belə insafsızcasına xərclənməsi faktına mütləq hüquqi qiymət verilməlidir. Onlar elə bir fərqli şəraitdə yaşamırlar ki, xüsusi komfort tələb edən avtomobillərdən başqa nə ilə keçinə bilməsinlər. Burada bir məmur vicdanı da olmalıdır. Bilməlidir ki, dövlətin pulunu bu şəkildə israf etmək olmaz".

## *İcra başçısı: "Mercedes Benz S 350" avtomobilinin alınmasını təxirə saldıq"*

Yaranmış vəziyyətə aydınlıq gətirmək üçün sözügedən rayonun İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Bizə bildirdilər ki, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədovun tender yolu ilə "Mercedes Benz S 350" xidməti avtomobilin alınmasına aydınlıq gətirən açıqlaması var, ondan başqa nəsə söyləyə bilməzlər. Aqil Məmmədov bildirir ki, dövlət tərəfindən İcra Hakimiyyətinə 55 min manat xidməti avtomobilin alınması üçün pul ayrılıb:

"2 ildir ki, müavinimin xidməti avtomobili yoxdur. Dövlət büdcəsindən xidməti avtomobilin alınması üçün 55 min manat pul ayrıldı. Təklif etdim ki, sözügedən məbləğə 2010-cu ilin buraxılışı olan "Mercedes Benz S 350" avtomobili alınsın. İcra Hakimiyyəti bunun üçün tender komissiyasına müraciət etdi və tender elan olundu".

**Aqil Məmmədov vurğulayıb ki, artıq sözügedən xidməti avtomobilin dəyəri büdcələrinə uyğun olmadığı üçün alınması təxirə salınıb: "Tenderdə hələlik sözügedən avtomobillər təklif olunmayıb. Təklif olunan avtomobillərin qiyməti çox bahadır. Ona görə "Mercedes Benz S 350" avtomobilinin alınmasını təxirə saldıq".**

***Məhəmmədəli QƏRİBLİ***

# Yol kənarlarında plastik butulkalarda pərakəndə benzin satışı təhlükəsi yenidən qayıdır...



## *Eyyub Hüseynov: "... olduqca təhlükəli tendensiyadır"*

**Bakıətrafı bəzi qəsəbələrdə, eləcə də rayonların bir çox kəndində plastik qablarda benzin doldurub satılması halına tez-tez rast gəlmək olur.**

Danılmaz faktdır ki, yol kənarında satılan benzin saatlara günəş şüalarının altında qalır. Həmin mayenin saatlarla günəş şüasının altında qalması, üstəlik, plastik qablarda olması onun təhlükəsizliyini sual altında qoyur.

Nəzərə almaq lazımdır ki, bu plastik qablarda satılan benzin daha çox yanacaqdoldurma məntəqələrinin olmadığı yerlərdə satılır. Təbii ki, həmin ərazidən keçən sürücünün yanacağa ehtiyacı varsa, o, çarəsizlikdən plastik qabda satılan benzini alıb avtomobilinə tökəcək.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, benzin mütəmadi olaraq təmizlənən xüsusi çənlərdə saxlanılmalıdır.** Onun saxlanılma şəraitinə və satışı zamanı xüsusi nəzarət həyata keçirilməlidir: "Plastik qablara benzin doldurub satılması olduqca təhlükəli tendensiyadır. Nəzərə almaq lazımdır ki, plastik qabın özü başdan-ayağa təhlükəli, zəhərli, tez alışmağa qadir, partlayışa meylli kimyəvi maddələrlə doludur. Bu mənada plastik qablara benzin doldurub satmaq təhlükəli olmaqla yanaşı, həm də qanunsuzdur. Hər bir ərazidə yanacaqdoldurma məntəqələri olduğundan, benzinin plastik qablarda satılması, ümumiyyətlə, yolverilməzdir".

## *"Bölgələrimizdə benzinin plastik qablara tökülərək satılması hallarına hələ də rast gəlinir"*

Həmsöhbətimizin sözlərinə görə, plastik qablarda satılan benzindən istifadə edilməsi avtomobil hissələrinin tez sıradan çıxmasına gətirib çıxarır: "Plastik butulkalar ətraf mühitin çirkləndirilməsində mənfi rol oynayır. Bölgələrimizdə benzinin plastik qablara tökülərək satılması hallarına hələ də rast gəlinir. Benzin isə kifayət qədər kimyəvi aktivli maddədir. Bu özünü xüsusən də isti yay aylarında göstərir. Plastik qabların tərkibindəki kimyəvi maddələr benzinə də keçir. Nəticədə həmin benzindən istifadə edən avtomobillərin yanacaq sistemində, mühərrikində problem yarana bilər. Xüsusilə də isti havalarda həmin qablardakı benzinin keyfiyyəti aşağı düşdüyündən, ondan istifadə edildikdə avtomobilin bəzi detallarının sıradan çıxması da gözləniləndir.

**Ona görə də sürücülər, heç bir halda, plastik qablarda satılan benzini almamalı, saxlanılma şəraitinə və keyfiyyətinə nəzarət edilən benzin almalıdırlar".**

***Günel CƏLİLOVA***

# Ümumdünya İrs Siyahısına əlavə ediləcək 36 qiymətli abidənin sırasında Azərbaycan incisi... (?)

**3 iyun 1992-ci il tarixində qurulan Azərbaycan-UNESCO əməkdaşlığı 1993-cü ildən sonra daha da güclənərək, hazırkı səviyyəsinə gəlib çatdı. Bu gün UNESCO və Azərbaycan arasındakı qarşılıqlı əlaqələrin formalaşmasında UNESCO-nun ölkəmizdəki xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın danılmaz xidmətləri var.**

Bu gün UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsini gerçəkləşdirən amillərdən biri də budur.

Bildiyimiz kimi, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında müzakirəyə çıxarılacaq məsələlərdən biri bir sıra mədəni və təbiət abidələrinin dünya irs siyahısına salınması olacaq. Bu siyahıya Azərbaycandan hansı abidələrin daxil edilməsi nəzərdə tutulur?

Bildirək ki, Dünya İrs Komitəsinin 43-cü sessiyasının gündəliyində UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçiriləcək. Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq (təbiət və mədəni) abidələr sırasına daxildir. Sessiyalarda ilk olaraq siyahı üzrə təbiət obyektləri, daha sonra mədəni obyektlərlə bağlı nominasiyalar müzakirə ediləcək.

Mədəniyyət naziri Əbülfəs Qarayevin verdiyi məlumata görə, Azərbaycandakı bir neçə məkanın UNESCO-nun Dünya İrsi Siyahısına namizəd kimi irəli sürülməsi nəzərdə tutulur.

**Nazirin bildirdiyinə görə, hazırda Şəkinin Xan Sarayı və şəhərin qədim hissəsinin bu siyahıya salınması üzərində iş gedir: "Bakıda bu məsələ müzakirə olunacaq və ümid edirik ki, nəticə müsbət həllini tapacaq. Bir neçə variant var və onların bəzilərində nöqsanlar mövcuddur. Onları aradan qaldırdıqdan sonra yenidən məsələyə baxılacaq. Çalışacağıq ki, məsələ həll olunsun".**

Bundan başqa, nazir onu da deyib ki, Hirkan Milli Parkının meşələri üçün İranın nominasiyası nəzərdə tutulur: "Həmin meşənin Azərbaycana düşən hissəsini vahid məkan kimi təqdim etmək istəyirik. Bu, gələcəyin məsələsidir. Naxçıvandakı türbələrin də siyahıya salınmasını nəzərdə tuturuq. Hazırda bu məkanlar normal vəziyyətdə olduğundan, elmi cəhətdən əsaslandırılması prosesi getməlidir".

Ekspertlərin qeyd etdiyinə görə, bu gün Azərbaycanda bir sıra maddi və qeyri-maddi irs nümunələri, eləcə də təbiət abidələri var ki, onların Ümumdünya İrs Siyahısında yer alması çox vacibdir.

İçərişəhər, Şirvanşahlar saray kompleksi, Qız qalası, Qobustan dövlət tarixi-bədii qoruğu kimi abidələrimizin UNESCO-nun maddi irs siyahısında yer aldığını deyən ekspertlərin bildirdiyinə görə, hazırda müvəqqəti salınan Bakı dağ mərhələsi, Binəqədi dördüncü dövr fauna və flora qəbiristanlığı, Lökbatan palçıq vulkanı, Hirkan milli parkı, Ordubad tarixi şəhəri, Şəki Xan Sarayı, Atəşgah, Şuşa tarixi şəhəri, Beşbarmaq səddi, Gilgilçay səddi, Çıraqqala, Şabran qalası, Dördkünc Mərdəkan qalası, Dairəvi Mərdəkan qalası, Bayıl qalası, Nardaran qalası, Ramana qalası, Gülüstan türbəsi, Möminə Xatun türbəsi, Qarabağlar türbəsi, Yusif ibn Küseyir türbəsi, Zaqatala Dövlət Təbiət Qoruğu da həmişəlik UNESCO-ya daxil edilməlidir.



*Aida İsmayılova: "Bu sessiyanın paytaxtımızda keçirilməsi bizə imkan verir ki, bir sıra abidələrimizi də UNESCO-ya daxil edək"*

*"Hazırda aktual olan məsələ Şəkinin UNESCO-ya daxil edilməsidir, düşünürəm ki, buna nail olacağıq"*

**Azərbaycan Milli Elmlər Akademiyasının Milli Tarix Muzeyinin Arxeologiya şöbəsinin müdiri Aida İsmayılova hesab edir ki, Azərbaycanda bir sıra abidələrin UNESCO-nun Ümumdünya İrs Siyahsına salınması vacibdir.** A.İsmayılovanın sözlərinə görə, Dünya İrs Komitəsinin Bakı sessiyasında UNESCO-ya daxil edilməsi barədə müzakirəyə çıxarılan 36 abidə sırasında Azərbaycan abidələri də var. "Hesab edirəm ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakının evsahibliyi ilə keçirilməsi çox əlamətdar hadisədir. Hazırda bu sessiyada müxtəlif panellər üzrə müzakirələr aparılır. Bilirsiniz ki, Azərbaycan uzun illərdir UNESCO ilə yaxından əməkdaşlıq edir və Azərbaycanın bir neçə maddi və qeyri-maddi irs nümunəsi bu təşkilatda qeydiyyata alınıb. Bu sessiyanın paytaxtımızda keçirilməsi bizə imkan verir ki, bir sıra abidələrimizi də UNESCO-ya daxil edək. Hazırda aktual olan məsələ Şəkinin UNESCO-ya daxil edilməsidir, düşünürəm ki, buna nail olacağıq. Milli Azərbaycan Tarixi Muzeyində Şəki ilə bağlı maraqlı bir sərgi açmışıq. Burada Şəki ilə bağlı bir sıra arxeoloji, etnoqrafik materiallar, eləcə də tikmələr və sair sərgilənir. Əslində, Şəkinin UNESCO-ya salınması çox məqbuldur. Qədim şəhərlərimizdən olan Şəkinin bu siyahıda yer alması çox müsbət hal olardı. İndiyə qədər elə bilirdim ki, bizim palçıq vulkanlarımız UNESCO-ya daxil edilib. Sonra gördüm ki, edilməyib. Palçıq vulkanlarımız, Atəşgah, Binəqədi dördüncü dövr fauna və flora qəbiristanlığı UNESCO-ya daxil edilsə, dünya bizim bu unikal abidələrimizdən xəbər tutar. Fauna və flora qəbiristanlığı çox zəngindir. Bu qəbiristanlıqla bağlı bizim muzeydə də bəzi eksponatlar var. Bu dəyərli abidələr göstərir ki, burada qədim dövlərdə nə qədər heyvanın yaşaması üçün şərait olub.

**Səlcuq dövrü Naxçıvan abidələrinin, Möminə Xatun türbəsinin də bu siyahıya düşməsi gözlənilləndir. Mədəniyyət Nazirliyindən də deyiblər ki, bu abidələrin siyahıya salınmasına çalışırıq. Bu abidələr islam dövrünün çox zəngin örnəkləridir. Gədəbəydəki dağlıq ərazilərdə bəzi abidələr, məbədlər var ki, onlar da bu siyahıda yer alsa yaxşı olar. Yəqin bu məsələlərə baxılacaq" - deyə A.İsmayılova bildirdi.**

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



# Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**İqtisadiyyatın liberal mahiyyəti tarixən formalaşmış klassik yanaşmaların ən maraqlı istiqamətlərindən biri hesab olunur. Mikro səviyyədə fərdi, makro səviyyədə isə təbii nizamı və sərbəst bazarı əsas götürən liberal iqtisadi yanaşma merkantilistlərin fikirlərinə qarşı XVIII əsrin sonlarında Fransada və İngiltərədə meydana gəlib.**

Azad ticarətin, sahibkarlığın və bazar əsaslı iqtisadiyyatların müasir sistemi təxminən 200 il əvvəl formalaşmağa başlayıb. Bu prosesin bir çox iqtisadi quruluşlarda verdiyi səmərə dünya dövlətlərini prosesi təşviq etmək istiqamətində düşündürür. Hansı yollarla liberal iqtisadiyyatın verdiyi faydadan daha çox yararlanmaq olar? Bu istiqamətin geniş yayılması üçün dövlət hansı tədbirlər həyata keçirə bilər? Son illər iqtisadçıların gündəmə gətirdiyi ən aktual məsələlər məhz bu suallar ətrafında toplaşıb. Beynəlxalq iqtisadi münasibətlərin fəal və önəmli aktoruna çevrilən Azərbaycanda da müvafiq sahə prioritet istiqamət kimi müəyyənləşdirilib. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bazar münasibətlərinə əsaslanan liberal iqtisadi sistemin formalaşması, vətəndaşların iqtisadi azadlığına, təşəbbüskarlığına şərait yaradılması, zəngin təbii sərvətlərdən səmərəli istifadə, investisiya cəlbediciliyinin yüksəldilməsi və digər tədbirlərin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı yeni keyfiyyət parametrləri ilə özünü təsdiqləyib. Bu parametrlər keçid dövrünü uğurla başa vurmuş ölkəmizdə mülkiyyətin çoxnövlülüyünün təmin olunması, bazar iqtisadiyyatı üçün qanunvericilik bazasının yaradılması, aqrar islahatların həyata keçirilməsi, sahibkarlar institutunun formalaşması, özəlləşdirmə istiqamətində hüquqi bazanın yaradılması, müəssisələrin təsərrüfat fəaliyyətində dövlətin rolunun məhdudlaşdırılması, daxili və xarici iqtisadi fəaliyyətin liberallaşdırılmasında, qiymətlərin bazar tərəfindən müəyyənləşdirilməsi, ümumilikdə, dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsi və bu kimi digər məsələlərdə özünü göstərir.

İqtisadi inkişafın əsas elementlərindən biri də ölkədə sahibkarlıq üçün əlverişli mühit yaradılmasıdır. Çünki iqtisadiyyatın tərəqqisi üçün rəqabət mühiti və şaxəli şəkildə inkişaf olmalıdır. Hər bir ölkənin iqtisadi tərəqqisində onun azad biznes və sahibkarlıq mühitinin vəziyyəti vacib rol oynayır. Bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi faktorları ümumi inkişafın göstəricisinə çevrilir. Dövlətin təmin etdiyi azad bazar institutu ölkədə sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Eyni zamanda, ölkədəki xarici sərmayəçilərə yaradılan mühitin şəffaflıq dərəcəsi iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri hesab olunur. Bu mənada bazar iqtisadiyyatını əsas istiqamət seçən Azərbaycan hökumətinin biznes mühiti ilə bağlı həyata keçirdiyi tədbirlər böyük əhəmiyyət daşıyır. Müasir dünyada bazar iqtisadiyyatını azad sahibkarlıq fəaliyyəti və liberal iqtisadiyyat olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının təminatı özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafından asılı olduğu üçün, respublikamızda sahibkarlığın inkişafı prioritet istiqamətlərdən biridir və özəl sektor ölkə iqtisadiyyatının inkişafında və qeyri-neft sektorunun şaxələnməsində xüsusi rol oynayır. Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. Ölkədə sahibkarlığın inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılıb. Son illər ölkənin dinamik inkişafında iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Müstəqillik qazandıqdan sonrakı dövrdə sahibkarlığın təşəkkülü və inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilsə də, əsaslı dönüşə 1996-cı ildən etibarən nail olundu. Belə ki, Prezidentin 30 aprel 2001-ci il tarixli Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyinin yaradılması sahibkarlığın inkişafına dövlət köməyi və onun dövlət tənzimlənməsi tədbirlərinin vahid qurumda birləşdirilməsinin və idarə edilməsinin əsasını qoydu və sahibkarlığın inkişafını ümumi iqtisadi inkişafın tərkib hissəsinə çevirdi. Ölkədə sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək göstərmək, onlara maliyyə dəstəyi vermək məqsədilə Sahibkarlığa Kömək Milli Fondu yaradılıb.

Ötən illər ərzində sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycanda sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilib. Sahibkarlığın inkişafının zəruri hüquqi mühitinin formalaşdırılması istiqamətində qəbul edilmiş qanunlar və digər qanunvericilik aktları sahibkarlığın bir sistem halında hüquqi bazasını təşkil edir. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu olub, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. Bu dövlət proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib. Sahibkarlara dövlət maliyyə köməyi sistemi formalaşdırılıb. Sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində müəyyən addımlar atılıb. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sahibkarlığın inkişafı istiqamətində strateji xətt uğurla davam etdirilir. Ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə ölkə başçısı tərəfindən 2014-cü ildə "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalanıb. 2004-cü ildən bu günə qədər sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirilən son 16 il həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. Regional dövlət proqramlarında biznes mühitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlər əksini tapıb. Bu da bölgələrin tərəqqisi prosesində özəl sektorun imkanlarını səfərbər etmək, sosial xarakterli məsələlərin həllində sahibkarların fəal iştirakına nail olmaq istəyindən irəli gəlib.

2004-2008, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən dövlət proqramları respublikamızın regionlarında yerli sahibkarlığın, yeni istehsal və emal müəssisələrinin açılmasına, işsizlik və yoxsulluq probleminin əsaslı dərəcədə həllinə ciddi təkan verib. Ötən illərdə kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli məqsədilə yeni mexanizmlər tətbiq edilib. 2019-cu il aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz artaraq 1580,8 min nəfər olub, onlardan 896,2 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 684,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 21,2 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,1 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,9 faizi tikinti, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 12,3 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

Ölkə vətəndaşları bir zamanlar iş axtarmaq üçün Rusiya və digər MDB ölkələrinə üz tuturdularsa, son illər ölkədə sahibkarlığın inkişafı sayəsində əks proses başlayıb. Nəin ki, MDB-dən, ümumilikdə, dünyanın bir çox ölkəsindən işaxtaranlar iqtisadi baxımdan cəlbedici ölkə kimi respublikamıza üz tuturlar. Vaxtilə iş tapmaq ümidi ilə başqa ölkələrə gedən vətəndaşlarımızın son illər geri qayıtması, habelə əcnəbi miqrantların leqal, bəzən də qeyri-leqal şəkildə respublikanın əmək bazarına can atmaları sahibkarlıq subyektlərinin və yüksək gəlirli iş yerlərinin sayının artması ilə izah olunur. Yeni iş yerlərinin yaradılması bilavasitə sahibkarlığın inkişafı və kapital qoyuluşlarının həcminin artması ilə sıx bağlı proses olduğundan, hökumət iş adamları üçün ildən-ilə daha yaxşı imkanların yaradılmasına çalışır.

Ölkədə makroiqtisadi sabitlik sahəsində əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi, yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin yüksəldilməsi, ədalətli rəqabət mühitinin formalaşdırılması sahibkarlığın inkişafına təkan verir. Bununla belə, qeyri-formal məşğulluğun qarşısının alınması, işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə kömək edən xüsusi tədbirlərin həyata keçirilməsi, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı digər tədbirlərin görülməsi bu sahənin inkişafına töhfə verir. Görünən odur ki, Azərbaycanda azad sahibkarlıq və liberal iqtisadiyyat ilbəil daha da inkişaf edir. Bu da ölkə iqtisadiyyatının dayanıqlı inkişafına ciddi təkan verir.

***Vidadi XUDAŞOV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# Gənclərə vətənpərvərlik ruhunun aşılanmasında tarixi şəxsiyyətlər örnəyi...

**Bu bir danılmaz faktdır ki, müharibə şəraitində olan bir ölkənin gənclərinin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi, bu ruhda böyüdülməsi başlıca şərtdir. Azərbaycan da 30 ilə yaxındır ki, müharibə şəraitində yaşadığından, torpaqları işğala məruz qaldığından qeyd etdiyimiz məqama xüsusi diqqət yetirməyimiz vacibdir.**




Ümumiyyətlə götürdükdə isə, gəncləin vətənpərvər ruhda tərbiyə edilməsinin hər hansı bir ölkənin müharibə şəraitində olub-olmaması ilə əlaqəsi yoxdur. İstənilən ölkədə gənclər bu ruhda tərbiyə olunmalıdır. Bu baxımdan Azərbaycanda vəziyyət ürəkaçandır desək, yanılmarıq. Çünki Azərbaycanda təkcə dövlət deyil, eləcə də qeyri-hökumət təşkilatları, ictimai birliklər bu işlə yaxından məşğul olur, gənclərimizin milli ruhda böyüməsi, vətənpərvər ruhda tərbiyə olunması üçün müxtəlif layihələr həyata keçirir, tədbirlər gerçəkləşdirirlər.

Yaxın tarixə nəzər yetirsək görərik ki, müasir Azərbacan tarixində gənclərə və gənc nəslə diqqət və qayğı, digər sahələrdə olduğu kimi, 1994-cü ildən bu yana yüksələn formada davam edir. Bu diqqət və qayğı onların vətənpərvərlik hisslərinin artmasına öz müsbət təsirini göstərir. Diqqət etsək görərik ki, ilk dəfə 1994-cü ildə gənclərlə bağlı bir nazirliyin yaradılması, daha sonra Gənclər Forumunun təşkili, Azərbaycan gəncliyinə böyük inamın və diqqətin olmasından irəli gəlirdi. Onun nəticəsidir ki, həmin ənənə bu gün də davam etməkdədir. İstər gənclərə fərdi şəkildə olan dəstək, istərsə də Gənclər Təşkilatlarında və QHT-lərdə olan gənclərə diqqət və qayğı günü-gündən artmaqdadır. Bu gün Azərbaycan gənci istər ölkə səhnələrində, istərsə də dünya səhnələrində Azərbaycanın mədəniyyətini, muğamını təbliğ edir. Gənclərimizin uğuru həm ölkəmizdə, həm də beynəlxalq yarışlarda saysız-hesabsızdır. İdman yarışlarında bayrağımızı qaldırır, himnimizi səsləndirirlər. Səngərlərimizdə düşmənlə üz-üzə dayanıb düşmənin hər həmləsinə layiqli cavab verən də Azərbaycan gəncidir. Siyasi arenalarda Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır və yalanla dolu erməni lobbisnə həqiqətlərlə layiqli cavab verir. Bütün bunlar Azərbaycan gəncinin məhz vətənpərvər olmasının əyani sübutudur.

Gənclərə bu gün diqqət və qayğı ən yüksək səviyyədə, ölkənin birinci şəxsinin timsalında özünü aydın göstərir. Heydər Əliyev kursunun layiqli davamçısı olan cənab İlham Əliyev hər çıxışında Azərbaycançılığı, vətənə, dövlətə bağlı olmağı gənclərə tövsiyə edir. Hər addımı ilə gənclərə örnək olan cənab prezident çox gözəl bilir ki, Azərbaycanı istədiyi zirvəyə qaldırmasında ona ən yaxşı köməkçilər məhz vətənini, dövlətini sevən gənclər olacaq.

Ali Baş Komandan, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin tez-tez cəbhə xəttinə getməsi və orada hərbçilərlə görüşlər təşkil etməsi yalnız səngərdə olan olan hərbçi gənlərimizi deyil bütövlükdə Azərbaycan əhalisinin vətənpərvərlik ruhuna böyük təsir edir. Məhz ona görədir ki, Mübariz İbrahimov kimi gənclərmiz yetişib və bu gün hər bir gəncin örnəyinə çevrilib.

Ümumiyyətlə deyə bilərik ki, Azərbaycan gənci bütün dönəmlərdə öz vətəninə və dövlətinə sədaqətlə bağlı olub və hazırda da bu bağlılıq davam etməkdədir.

Ancaq onu da etoraf etmək lazımdır ki, bu gün milli maraqlardan, dövlətçilikdən, vətənpərvərlik hisslərindən uzaq gənclərimiz də var. Ancaq sevindirici hal ondan ibarətdir ki, belə gənclərimiz azdır və bu kimi mənfi tendensiya da getdikcə aradan qalxır. Bu gün vətəninə, dövlətinə sədaqətlə bağlı olmayan gənclər o qədər azdır ki, hətta onları barmaqla belə saymaq mümkündür. Onlardan müəyyən xarici dairələr və daxildəki bəzi pozucu siyasi qüvvələ öz mənafeləri naminə istifadə edirlər. Təəssüflər olsun ki, günümüzdə də biz bunun şahidi oluruq. Bəzi hallarda gəncləri yoldan çıxarıb cinayət törətməyə, dövlətə qarşı çıxmağa sövq edirlər.

Bütün bunlardan gələnən qənaət ondan ibarətdir ki, günümüzdə gənclərin vətənpərvər ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılmalıdır. Gənclərimiz tarixin müxtəlif dövrlərində yaşamış və ad qoymuş tarixi şəxsiyyətlərimiz, sərkərdələrimizi, milli qəhrəmanlarımızı yaxından tanımalı, onların həyat yolu, Vətən uğrunda apardıqları mübarizəni dərindən öyrənməlidirlər. Heç şübhəsiz ki, bu biliklər gənclərimizə təhsil ocaqlarında aşılanmalıdır. Eyni zamanda gənclər arasında müntəzəm olaraq maarifləndirici xarakter daşıyan işlər görülməli, tədbirlər keçirilməlidir.

*Suleyman*

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

# Tovuzda şəhid Zaur Axundovun xatirəsinə həsr edilən taekvondo turniri başa çatıb

**Şəhidlərin xatirəsini uca tutmaq, onların işıqlı əməllərini daim yaşatmaq üçün dövlət və ictimaiyyət tərəfindən müxtəlif tədbirlər keçirilir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsinə müxtəlif yerli və beynəlxalq əhəmiyyətli idman yarışları təşkil olunur.**




## *”Qala” taekvondo klubunun rəhbəri ”Yarışın ən əzmkar məşqçisi” mükafatına layiq görülüb*

Tovuz Rayon Gənclər və İdman İdarəsinin dəstəyi və Zaur Axundov adına taekvondo klubunun təşkilatçılığı ilə, Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş Z.Axundovun xatirəsinə həsr olunan Tovuz rayon açıq birinciliyi başa çatıb. Turnirdə "Qala" taekvondo klubunun da uşaq və yeniyetmə idmançıları böyük nəticə göstəriblər. "Qala" taekvondo klubunun rəhbəri, 4-cü dan qara kəmər sahibi, respublikanın əməkdar məşqçisi Ramil Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yarış olduqca gərgin şəraitdə baş tutub və sevindirici haldır ki, yetirmələri bu dəfə də fərqlənməyi bacarıblar. "Bu yarış sıradan bir yarış deyildi. Burada Azərbaycandan və ölkəmizdən kənarda fəaliyyət göstərən taekvondo klublarının idmançıları iştirak edirdilər. Bu turnirdə mənim yetirmələrin də uğurla çıxış etdilər. 30-dan artıq komandanın qatıldığı bu nüfuzlu turnirdə komandamız 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazandı. Bunu "Qala" taekvondo klubunun növbəti uğuru hesab edirəm. İnanıram ki, yetirmələrim başqa turnirlərdə də yüksək nəticələr göstərəcəklər. Bu cür yarışların təşkil edilməsi uşaq, yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafında müstəsna rol oynayır. Xalqımızın şəhidlərimizin ruhuna sayğısı sonsuzdur, ehtiramı böyükdür. Şəhid Z.Axundovun xatirəsinə həsr edilən turnirin də gənclərimiz üçün həm də mənəvi əhəmiyyəti var" - deyə bildirən R.Həsənov qeyd etdi ki, turnirdə Xanmurad Süleymanov I, Mircəfər Cabbarov II, Fatma İsmayılova, Gülnur Musazadə və Hüseyn Səfərli III yerlərə layiq görülüblər. İdmançıların məşqçiləri Ramil Həsənov və idman ustası Fatma Əliyevadır. Qeyd edək ki, turnirdə taekvondo müəllimlərinə xüsusi təsis edilmiş mükafatlar təqdim edilib. "Qala" taekvondo klubunun rəhbəri, məşqçi-müəllim Ramil Həsənov, "Yarışın ən əzmkar məşqçisi" mükafatı ilə təltif edilib.

Turnirin təşkilatçısı və Z.Axundov adına taekvondo klubunun rəhbəri Ümid Axundov da bizimlə söhbətində turnirin əhəmiyyətindən danışdı. Ü.Axundovun sözlərinə görə,

***Ramil Həsənov:** ”30-dan artıq komandanın qatıldığı bu nüfuzlu turnirdə komandamız 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazandı”*

***Ümid Axundov:** ”Bu turniri şəhid Zaur Axundovun xatirəsinə həsr etməkdə məqsədimiz odur ki, onun timsalında bütün şəhidlərimizi yad edək”*

şəhid Z.Axundovun xatirəsinə həsr olunan turnir 14 ildir keçirilir. O bildirdi ki, ənənəvi olaraq, hər il keçirilən turnirdə 31 klub və taekvondo bölmələrindən, eləcə də Gürcüstanın "Rustavi" taekvondo klubundan, ümumilikdə, 380 uşaq, yeniyetmə və gənc taekvondoçu dayaq üzərinə çıxmışlar. Onun sözlərinə görə, 29-30 iyun tarixlərində Olimpiya İdman Kompleksində təşkil edilən turnirdə mükafatçılar, Rayon Gənclər və İdman İdarəsinin müvafiq diplom və medalları ilə təltif olunublar. "Bu yarış 14 ildir keçirilir. Əvvəllər yarış elektron qaydada keçirilmirdi, adi qaydada keçirilirdi. Yarışda əsasən 4-5 komanda və 60-100 idmançı iştirak edirdi. Amma son 4 ildir bu turnir çox yüksək səviyyədə, elektron sistemdə, sırf olimpiya qaydası ilə təşkil olunur. İştirakçıların da sayı əsasən 500 nəfərə yaxın olub. Son yarışda 380 idmançı öz güclərini sınadı. Bu il yarışda, həmçinin, Gürcüstan taekvondoçuları da iştirak edirdilər. Ümumilikdə, turnirə 31 komanda qatılmışdı. Bu turniri qardaşım şəhid Z.Axundovun xatirəsinə həsr etməkdə məqsədimiz odur ki, onun timsalında bütün şəhidlərimizi yad edək. Gənclərin idmana marağının artırılmasına, onlarda vətənpərvərlik hisslərinin formalaşdırılmasına töhfə verirk". Turnirin təşkilində Tovuz Rayon Gənclər və İdman İdarəsindən, eləcə də rayonun Qarabağ Əlilləri Cəmiyyətindən və digər qurumlardan, müəyyən iş adamlarından da dəstək aldıqlarını deyən Ü.Axundov yarışın keçirilməsinə hər hansı bir formada köməklik göstərənlərə təşəkkürünü də bildirdi.

***İradə SARIYEVA***

# Gözəllik salonlarında xərçəng risqi - söhbət dırnaq əməliyyatından gedir

**Qadın gözəlliyini tamamlayan amillərdən biri onun dırnaqlarıdır. Qadınlar əllərinin gözəlliyinə xüsusi önəm verir və bu səbəbdən də daim dırnaqlarına müxtəlif üsullarla qulluq edirlər. Qadınlar əvvəllər manikürlə kifayətlənirdilərsə, indi bu sahədəki yeniliklərdən yararlanırlar.**



*Dermatoloqlar dəri xərçənginə yoluxmamaq üçün gel-lak prosedurunu 2 aydan bir etdirməyi tövsiyə edirlər...*

***Aynurə Həsənova:** "Müştəri ayda bir neçə dəfə gel-lak etdirirsə, şüa dozası bir o qədər çox olur və onun sağlamlığı risq altına düşür"*

Bu gün paytaxtımızda və bölgələrimizdə fəaliyyət göstərən gözəllik salonlarında dırnaqların düzəldilməsi, süslənməsi ilə tamam yeni üsullarla məşğul olunur. Onların geniş yayılmışı gel-lakdır ki, qadınlar, hətta yeniyetmə məktəbli qızlar da gel-lak etdirirlər. Təəssüf ki, bizlər çox zaman bu yeni süsləmə formalarının sağlamlığımız üçün nə qədər zərərli olduğunu göz önünə almaq istəmirik. Dəfələrlə mütəxəssislər tərəfindən gel-lakın təhlükələri barədə xəbərdarlıqlar edilsə də, yeni də bu amil gel-laka kütləvi maraq göstərən qadınları bu yoldan çəkindirə bilməyib. "Gözəllik qurban tələb edir" tezisinə əməl edən qadınlar təəssüf ki, gözəlliyə öz sağlamlıqlarını qurban edirlər.

Bu gün Azərbaycanda xərcəng və müxtəlif şiş xəstəliklərinin qadınlar arasında daha geniş yayılmasının şahidi oluruq. Bu sırada gənc qadınların daha üstünlük təşkil etməsi ağrıdıcı faktdır. O da məlumdur ki, qadınlarımız gözəllik salonlarında hepatit C və digər xəstəliklərə də yoluxurlar. Əlbəttə, gigiyena qaydalara əməl edilməyən gözəllik salonlarının xəstəlik mənbəyinə çevrilməsi qaçılmazdır.

Yayılan məlumatlara görə, hazırda manikür ustalarının bir nömrəli metodu olan və qadınların da bəyəndiyi, tez quruması, dırnaqlarda çox qalması, praktikliyi, bir çox üstünlüyü səbəbindən tez-tez müraciət etdiyi gel-lakın insan üçün zərərli olması mütəxəssislər tərəfindən sübuta yetirilib. Mətbuatın yazdığına görə, gelin dırnaqlara möhkəmlənməsi üçün xüsusi ultrabənövşəyi şüalanma ilə lampadan istifadə olunur. Bu şüalar isə dırnaqətrafı dərini zədələyir, baryerini dağıdır, vaxtından əvvəl qocalma və xərçəngə səbəb olur. Problem ondadır ki, bu lampalar texniki standartlara cavab vermir, şüanın müştərinin əlinə yönəldilmə vaxtına əməl olunmur, hər salon öz bildiyi kimi istifadə edir. Doza müştərinin ayda neçə dəfə belə manikür etdirməsindən də asılıdır. Nə qədər çox, tez-tez gel-lak edilirsə, şüa dozası bir o qədər çox olur və müştəri risqə atılır.

Əgər qadının genetik olaraq dəri xərçənginə meylliyi varsa, eləcə də yüksək dəri piqmentasiyası varsa, o zaman onun dəri xərçəngi olma ehtimalı dəfərlərlə artır və bu adamlara belə lampalar altında şellak, gel-lak etdirmək ümumiyyətlə olmaz.

Bu barədə məlumat verən mütəxəssislərin sözlərinə görə, eləcə də kimyaterapiya preparatları və antibiotiklərin qəbulu UVÇ şüaların təsirini, həssaslığını artırır. Bu dərmanları qəbul edənlər də prosedurdan uzaq durmalıdırlar. Dermatoloqlar dəri xərçənginə yoluxmamaq üçün gel-lak prosedurunu 2 aydan bir etdirməyi tövsiyə edirlər.

Prosedur zamanı əllərə, dırnaqətrafı dəriyə xüsusi gündən qorunma SPF kremləri çəkilməlidir. Gel-lakı özünüz evdə qopardıb təmizləməyin. Bu zaman dırnaq plastininini zədələyə bilərsiniz.

*"Xərçəng, dəri qocalması və sair risqlər..."*

**Həkim-kosmetoloq Aynurə Həsənova "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, son dövrlər gözəllik üçün həyata keçirdikləri prosedurlar bəzi qadınların sağlamlığını əlindən alır.** Mütəxəssisin sözlərinə görə, çox zaman qadınlar gözəl görünmək üçün əməliyyata üz tutur, dırnaq düzəltdirir, saç əkdirirlər. Ancaq bir sıra hallarda bütün bunlar qadınların sağlamlığını təhlükə altına alır. "Əlbəttə, qadının hər zaman baxımlı olması vacibdir. Ancaq bəzən qadınlarımız daha gözəl görünmək üçün başqa vasitələrə əl atırlar. Əllərinin baxımlı olması qadının ən həssas yeridir desək yanılmarıq. Qadınların çoxu gözəllik salonlarına gedir və baha qiymətə dırnaqlarını düzəltdirirlər. Onlar ən çox gel-lak etdirməyə üstünlük verirlər. Bəzi salonlarda gel-lak edilərkən lazımi qaydalar gözlənilmir. Məsələn, gel-lak gec quruduğundan, onun qurumasını daha yüksək dozada həyata keçirirlər ki, tez qurusun. Belə olmaz. Hər şeyin öz qaydası var. Nəticədə ültrabənövşəyi şüalar qadınların dərisinə mənfi təsir göstərir. Bəzən elə qadınlar olur ki, onların immun sistemi çox zəif olur və bu halda onlar daha tez xəstəliyə tutula bilirlər. Bəzi qadınlarda xərcəng olur, ancaq onlar bundan xəbərsiz davamlı olaraq gel-lak etdirirlər. Bu halda qadınlarda o xəstəlik inkişaf edir. Gel-lak xüsusi avadanlıqla həyata keçirilir. Bu avadanlıqlar da şüa ilə çalışır. Qadınlara şüa həddən artıq pis təsir edir və orqanizmi zəif olanların saçları tökülür, dərisi qırışır, dırnaqlarının ətrafı didilir. Deformasiyaya uğrayan dəri isə sonradan daha böyük fəlakətlərə səbəb olur. Qadınların çoxu gel-lak etdirdikdən bir müddət sonra hiss edir ki, dırnaqları uzanıb, ona mane olur, salona gedib korreksiya etdirmək əvəzinə, evdə gel-lakı özü qopardıb təmizləyir. Bu zaman isə dırnaq plastini zədələnir. Gel-lak edilmiş dırnaqlar yalnız xüsusi avadanlıqla sökülə bilər, ona başqa müdaxilə olmaz. Qadınlarımız uzun müddət gel-lak etdirirlər, sonra gel-lak etdirmək imkanları olmadığı üçün, proseduru dayandırırlar. O qadınların dırnaqlarının təbii vəziyyəti o qədər pis olur ki, dırnaq örtüyü tamamilə nazilir, az qala ət görsənir. Odur ki, qadınlarımız bu cür prosedurlarda ehtiyatlı olmalıdırlar. Bilirsiniz, heç də bütün salonlarda işləyənlər peşəkar olmur. Elə salonlar var ki, qadınlarımızın dırnaqlarına orada lazımi qulluq göstərilmir. Xərçəng, dəri qocalması və s. risqlər o zaman daha çox artır ki, qəbul edilən doza həddən artıq olur. Yəni müştəri ayda bir neçə dəfə gel-lak etdirirsə, şüa dozası bir o qədər çox olur və onun sağlamlığı risq altına düşür" - deyə A.Həsənova vurğuladı.

***İradə SARIYEVA***

# Xəzərdə xilasedicilərin sayı azaldıqca boğulanların sayı çoxalır...

**İstilər düşən kimi hər kəs dənizə getmək, sərinləmək istəyir. Ancaq təəssüf ki, bəzən sərinləmək istəyi insanın həyatı bahasına başa gəlir. Çünki dənizə gedənlərin əksəriyyəti üzə bilmir. Üzməyi bacardığını zənn edən şəxslər isə bir az dərinliyə doğru üzən kimi təəssüf ki, batırlar.**



***Heydər Məmmədov:** "Dənizdə boğulmaların sayının artması səbəblərindən biri də insanların dənizdə uzun müddət üzməklə bağlı mərcə girməsidir"*

Təsadüfi deyil ki, dəniz mövsümünün yeni başlamasına baxmayaraq, artıq neçə-neçə adamın boğularaq öldüyü barədə xəbərlərə rast gəlirik. Məntiqlə baxanda, əslində, ən yaxşı üzməyi bacaran məhz azərbaycanlılar olmalıdır. Çünki biz Xəzər sahilində, Kür qırağında yaşayırıq. Ancaq təəssüf ki, üzməyi bacarmırıq. Bunun da bir neçə səbəbi var. İlk öncə bu işin əlifbasından başlamaq lazımdır.

Paytaxtda kifayət qədər üzgüçülük məkanları olsa da, hər kəs həmin məkanlara gedib üzgüçülüyün sirlərini öyrənə bilmir. Bunun da səbəbi idman mərkəzlərindəki üzgüçülük məkanlarının qiymətinin 50-60 manat arasında dəyişməsidir. Bir evdən iki nəfərin üzgüçülüyə getməsi onlara 100-120 manata başa gələ bilər ki, bu da əhalinin əksər hissəsinin cibinə uyğun deyil. Buna görə də insanların, demək olar ki, çoxu üzə bilmir və dənizə girən kimi batır.

Dəniz mövsümünün yeni başlamasına baxmayaraq, 10 nəfərə yaxın şəxsin boğulduğuna dair xəbər yayılıb. Məlumatlara görə, boğulmalar daha çox 13 yaşdan 35 yaşa qədər olan insanlar arasında müşahidə edilir.

Maraqlıdır, boğulmaların səbəbi xilasedicilərin sayının yetərincə olmaması ilə bağlıdırmı?

**Üzgüçülük sahəsi üzrə mütəxəssis Heydər Məmmədov bizimlə söhbətində qeyd etdi ki, dənizdə boğulmaların sayının artması insanların məsuliyyətsizliyi ilə bağlıdır:** "Dənizdə boğulmaların artmasının müxtəlif səbəbləri var. İlk növbədə bildirim ki, dənizdə üzənlər suda rəftar qaydalarına fikir verməlidirlər. Belə ki, suda davranış qaydalarına riayət olunmalıdır. Buna riayət etməyəndə hər bir hadisə baş verə bilər. Məsələn, əzələ dartınması, qolun, ayağın sınması ola bilər. Bir də görürsən ki, bir-birinin çiyinlərinə çıxıb suya tullanırlar. Bu vaxt həmin adamın başı suyun dibindəki daşa da dəyə bilər. Digər tərəfdən, dənizdə çox uzağa, dərinliyə doğru üzmək olmaz. Çünki insan yorular, damar dartınması ola bilər. Bu da boğulmaya gətirib çıxarar.

Əslində, insanların etdikləri ən böyük səhv bir az hovuzda üzməyi öyrənəndən sonra özlərini professional üzgüçü bilmələridir. Onlar hovuzla dənizin fərqini anlamalıdırlar. Dənizdə bir az üzəndən sonra insan yorulur və geri qayıda bilmir. Bəzən görürsən, suda burulğanlar olur. İnsanlar suya kəllə vururlar və həmin burulğana düşürlər. Həmçinin, dərinliyə tullananda da bunu nəzərə almalıdırlar. Çünki hovuzun dərinliyi ilə dənizin dərinliyi müxtəlifdir. Dənizdə dərinə gedənlər müvazinətini itirib çıxa bilmirlər və boğulma hadisəsi baş verir. Ümumiyyətlə, dənizlə ehtiyatlı olmaq lazımdır".

*"...həmin çimərliklərdə xilasedici olmayacaq"*

Həmsöhbətimiz onu da vurğuladı ki, FHN-in xilasediciləri yalnız çimərlik kimi istifadəyə icazə verilən hissələrdə var. İnsanlar bilməlidirlər ki, küləkli, dumanlı, yaxud günün qaranlıq saatlarında, günün 12:00-16:00 radələrində suya girmək məsləhət deyil. Ümumiyyətlə, dənizdə saatlarla qalmaq risqdir. Xüsusilə günün birinci yarısında günəş şüalarının təsiri güclü olduğundan, günvurmaya yol aça bilir: "Bunu isə hiss etmədən suya girən adamlarda huşunu itirmə, müvazinətini itirmə halları yaşanır. Belə olan halda isə boğulma qaçılmaz olur. Ən münasib vaxt 16:00-dan sonradır. Mümkün qədər kölgədə qalmaq məsləhətdir".

H.Məmmədovun sözlərinə görə, dənizdə boğulmaların sayının artması səbəblərindən biri də insanların dənizdə uzun müddət üzməklə bağlı mərcə girməsidir: "Gənclər dənizə istirahət məqsədilə yox, özünü ətrafdakılara göstərmək, kiməsə nəsə sübut etmək üçün gedirlər. Bu, düzgün deyil. Dəfələrlə rastlaşdığım məqamlardır. Bir neçə gənc mərc edir ki, kim daha çox dərinə gedə bilər və gəlirlər çimməyə. Bütün bunlar insanın bilə-bilə öz həyatını risqə atmasıdır. Dəniz səhvləri bağışlamır".

Ekspert qeyd etdi ki, bu gün dənizdə istirahət etmək istəyən insanlar çimərlik üçün yararsız olan sahələrə üz tuturlar. Təbii ki, həmin çimərliklərdə xilasedici olmayacaq. Təhlükəsizlik baxımından istifadəyə yararlı çimərliklərə gedilməsi daha məqsədəuyğundur.

***Günel CƏLİLOVA***

№ 114 (4012) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

2 İYUL 2019-cu il

www.baki-xeber.com

## Qəhvə və çay içənlərə həkimdən qorxunc xəbərdarlıq...

**Türkiyəli fizioterapevt Əhməd Çapar həddindən artıq çay və qəhvə içən insanları xəbərdar edib. "Milli.Az" xəbər verir ki, mütəxəssis kafeinin həzm sistemindən kalsiumun sovrulmasını azaltdığını və böyrəklərdən kalsiumun atılması prosesini artırdığını deyib.**

Həkim qeyd edib ki, Türkiyədə erkən yaşlanma və sümük əriməsi (osteoporoz) xəstəliyinin yaranma səbəblərindən biri də çox çay içməkdir. Sümük əriməsinin səssiz bir xəstəlik olduğunu ifadə edən Əhməd Çapar onun sınıq olana qədər yavaş-yavaş irəlilədiyini deyib: "Həyatın erkən mərhələlərində sümük parçalanır və davamlı olaraq bərpa edilir, bu, sümüklərin yenidən qurulması kimi tanınan bir prosesdir. Sümüyün qalınlaşması xüsusilə 20 yaşa yaxın başa çatır. Sümüklərin zəifləməsi adətən 30 yaşdan sonra başlayır. Sümüklər daha çox kalsium itirir. Sümüklərin yenidən qurulması daha ləng gedir və sümüklər incəlməyə doğru gedir. Qadınlarda menopozdan 5-7 il keçdikdən sonra sümük əriməsi sürətlənir. Sümük əriməsinin sürətli postmenopozal artımı sümüklərdə kalsiumu saxlamağa kömək edən estrogen hormonlarının azalması ilə bağlıdır. Yaş artdıqca sümük əriməsi normaldır, lakin bəzi qadınlarda sınıq olması riski daha yüksəkdir. Skelet quruluşu miniatür olan xanımlar, siqaret çəkən qadınlar və ya oturaq həyat tərzi yaşayan insanlar yüksək risk altındadır. Sümük əriməsini riskini tamamilə sıfıra endirən bir müalicə yoxdur. Ancaq həyat tərzinizdə dəyişikliklərlə qarşısını ala bilərsiniz. Daimi məşq proqramları bütün yaşlarda çox faydalıdır. Müəyyən yaşdan sonra rasiona kalsiumla zəngin qidalar daxil edilməli, lazım gələrsə, kalsium həbləri qəbul edilməlidir". Mütəxəssis sonra əlavə edib ki, sümük əriməsindən qoruyan ən faydalı qidalar süd və süd məhsullarıdır: "Pendir və digər süd məhsulları kalsiumla zəngindir. Bundan əlavə, tərəvəzlər, paxla, qoz-fındıq, D vitamini və taxıl baxımdan zəngin qidalar sümük əriməsi prosesini ləngidir. Sümüklərin gücləmməsində D vitamının rolu böyükdür. O, həzm sistemində kalsiumun mənimsənilməsini artıraraq sümükləri gücləndirir. Gündə 15 dəqiqə günəş işığında olmaqla dəri gündəlik D vitamini ehtiyacını ödəyir. Sümük əriməsinin qarşısını almaq üçün qəhvə və çay miqdarı məhdudlaşdırılmalıdır. Kofein, siqaret və alkoqol həzm sistemindən kalsiumun mənimsənilməsini azaldır və böyrəklərdən kalsiumun xaric olmasını artırır. Əgər qəhvəsiz qala bilmirsinizsə, kalsium əlavələri qəbul edin".

## "Nar"dan gənclərə növbəti iş fürsəti

**Gənclərə dəstək olmaq və onların uğurlu karyera qurmasına kömək etmək məqsədilə "Nar" son 6 ay ərzində 5-ci əmək yarmarkasında iştirak edib.**

Bakı Biznes Universitetində keçirilən "Məzun - 2019" buraxılış tədbiri çərçivəsində mobil operator tələbə və məzunlara mövcud vakant iş yerləri haqqında məlumat verilib. "Karyerada ilk addım" devizi altında keçirilən əmək yarmarkasında mobil opeator müştərilər, satış və biznesin təhlili üzrə mütəxəssis vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mobil operator universitetin tələbə və məzunlarına uğurlu karyera barədə məsləhətlər verib. Tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin, bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar. Qeyd edək ki, gənclərə dəstək və iş imkanlarına çıxışın təmin edilməsi "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasında yer alan istiqamətlərdən biridir. "Nar"ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.




## "Qızıl qan" sahibi insanlar kimlərdir...

**"Qızıl qan"a sahib insanlar planetimizdə çox nadir hallarda rast gəlinir. "Ölkə.az" bildirir ki, son 60 ildə cəmi 43 nəfər qızıl qan sahibi tapılıb. Qızıl qan mənfi rezus faktorlu qan sahibləridir.**

Bu qan sahibləri elm üçün çox vacibdir. İnsanda dörd qan qrupu olduğunu bilirik. Bundan başqa, mənfi və müsbət rezuslar da var. Əslində isə, vəziyyət daha mürəkkəbdir. İstənilən insanın qanı 342 Rh-antigenə sahibdir. Bəzilərində bu az, bəzilərində çoxdur. Antigenlərin 160-ı ümumi yayılıb, demək olar ki, bütün insanlarda var. Geniş yayılan antigen çatışmazlığı isə nadir hallarda üzə çıxır. Avropalıların böyük əksəriyyətində D antigeni yoxdur. Bu insanları isə mənfi rezus-faktor daşıyıcıları adlandırırlar. Dünya əhalisinin 10 faizi mənfiz rezus-faktor daşıyıcısıdır. Bu tip insanlar yüksək İQ, güclü fiziki və psixoloji xarakteristikası ilə seçirilər və bu səbəbdən cəmiyyətdə yüksək mövqe tuturlar. Araşdırmalar göstərir ki, qədim dövrlərdə də, hökmdarlar və idarəçilər məhz bu qan qrupunun daşıyıcıları olublar. Bəzi müstəqil araşdırmalar isə bu irqin yadplanetli olduğunu göstərir. İnsanda antigen heç olmaya bilərmi? Hələ 50 il əvvəl alimlərin fikrinə görə, belə bir embrion qadının uşaqlıq borusunda sağ qala bilməzdi. Amma 1961-ci ildə mənfi rezus-faktorlu qan Avstraliyada yaşayan bir aborigendə kəşf edildi. Onun qanında RH-antigeni yox idi. O dövrdən dünyada belə insanların sayı 43-ə çatıb. Amma bu insanların da ciddi problemi var. Çünki, onlara ancaq mənfi rezus-faktorlu qan köçürmək olar. Alimlər deyir ki, belə qızıl qan həm yaxşıdır, həm də pisdir. Bir tərəfdən belə insanlar unikal donor ola bilər, bir çox insanı xilas edə bilər. Digər tərəfdən isə özlərinə qan tapmaqda çətinlik çəkərlər.

## Elan

Şükürlü Şahbaz Şahbala oğlunun adına, Nərimanov rayonu, Fətəli xan Xoyski 113, mənzil 1 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Timakov Vyaçeslav İvanoviçin adına, Nərimanov rayonu, İnqilab küçəsi, ev 55, mənzil 28 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Səkinə Rəhman qızına aid, Xəzər rayonu, Mərdəkan qəsəbəsində 0.12 ha, 1087 №-li bağ sahəsinin icarəyə verilməsi haqqında 02 avqust 2001-ci il tarixli, 568 №-li müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Zamanova Elnarə Ağakərim qızının adına, Bakı şəhəri, Nizami rayonu, Q.Qarayev küçəsi, ev 9, mənzil 12 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Könül Rəhman qızına aid, Xəzər rayonu, Mərdəkan qəsəbəsində 0.12 ha, 1087a №-li bağ sahəsinin icarəyə verilməsi haqqında 02 avqust 2001-ci il tarixli, 30197 №-li müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Margiani Tamaz Georgiyaya məxsus, "ASAN xidmət" tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Şərtiliyi bir kənara atın. Problemləri qeyri-trivial yollarla həll etməyə çalışsanız, səyləriniz uğurla başa çatacaq. Sürətlə çalışın, tez qərarlar qəbul edin. İntuisiyanıza güvənin. Yaradıcılıq enerjiniz çoxdur.



**Buğa** - Gün ərzində diqqəti əldən verməyin. Fatalist olmayın, hər şeyi taleyin ümidinə buraxaraq ətalətlə davranmayın. Əzmkar olsanız, çətin problemlərin öhdəsindən gələ bilərsiniz. Kimsədən çəkinməyin, qorxmayın.



**Əkizlər** - Bu gün sözlər yox, əməllər önəmlidir. Borcları ödəyin. Kreditlərlə bağlı ödənişləri gecikdirməyin. Maliyyə öhdəliklərinizi unutmayın. Nəzərdə tutulmamış, qəfil alış üçün böyük məbləğdə pula ehtiyac yarana bilər.



**Xərçəng** - Adi, gündəlik qayğıların çözümü və rutin işlərin görülməsi üçün əlverişli zamandır. Uğurunuz fatumdan yox, bilik və bacarıqlarınızdan asılıdır. Riskli anlaşmalar, sövdələşmələr məsləhət deyil.



**Şir** - Vurnuxma, tələskənlik, əsəblərin tarıma çəkilməsini vəd edən gündür. Uğursuz situasiya problemlərin sayını artıracaq. Yaradıcılıq enerjisi və aktivlik bir sıra çətinlikləri həll etməyə, maneələri keçməyə imkan verəcək.



**Qız** - Proseslər və baş verən hadisələr sizdən həm əqli, həm də fiziki aktivlik tələb edir. Az danışıb, çox iş görün. Qarşınıza qoyduğunuz hədəfləri təftiş edin. Bitkin konsepsiyanız olmalıdır.



**Tərəzi** - Asan qələbələrə bel bağlamayın. Nəzərdə tutduğunuz işləri çətinliklə həyata keçirəcəksiniz. Nəticələr isə sizi sevindirəcək. Çalışdığınız kollektivdə mövqelərinizi möhkəmləndirə bilərsiniz.



**Əqrəb** - Adi günlərlə müqayisədə daha qətiyyətli, iradəli olun. Xırda məsələlər sizi çaşdırmasın, ruhdan salmasın. Kiçik detallar işinizin son nəticəsinə ciddi təsir edə bilər. Çevik, mütəhərrik olun.



**Oxatan** - Sayıq və diqqətli olun. Ən kiçik səhvin fəsadları böyük, ağrılı ola bilər. Emosional davranmayın. Hisslərə qapılsanız, məqsədə doğru aparan yoldan sapmaq təhlükəsi yaranacaq.



**Oğlaq** - Rutin məsələlərin həllində təşəbbüskar olun. İdeyalarınızı daha səmimi şəkildə söyləyin. Qarşı tərəfin mövqelərini mütləq şəkildə nəzərə alın. Tənqid və iradların sayını artırmayın.



**Dolça** - Günün ilk yarısından etibarən hadisələrin intensivliyi artacaq. Mühüm, önəmli məsələlərin həllini gecikdirməyin. Bəzi məqamlarda lider mövqeyi tutmalı, yaxın ətrafınızdakı insanları arxanızca aparmalısınız.



**Balıqlar** - Çalışdığınızı kollektivdəki ümum ab-havaya rəğmən fikrinizi və mövqeyinizi söyləməkdən çəkinməyin. Rəhbərlik təşəbbüsünüzü dəyərləndirə bilər. Mövqeyinizi arqumentlərlə möhkəmləndirməyi unutmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## İtirilən qulaq dəniz sahilində tapıldı

**Amerikanın Cənubi Karolina ştatının Byufert şəhərində maraqlı hadisə baş verib. "Ölkə.az" bildirir ki, Merrit Yeqer ailəsi ilə Florida sahillərində istirahət edərkən bahalı qulaq protezini itirib.**

O, çimərlikdə gəzərkən güclü dalğa sinəsindən vurur və onun protez qulağı yerə düşür. Ailənin digər üzvləri də itən qulağı axtarıblar və tapa bilməyiblər. Yeqer ailəsi ilə Floridanı tərk edəndə, dəniz sahilində kimsə protez qulaq tapır və onu polisə təqdim edir. Detektiv Brayan Holl "ABC News"a müsahibəsində qeyd edir ki, belə hal ilə ilk dəfədir rastlaşır: "Əvvəlcə bunun protez və ya əsl qulaq olduğunu anlamadım.

Biz "Facebook"da elan verdik. Amma qulağın sahibini tapacağımıza inanmırdıq". Protez qulaq barədə məlumat Yeqerə də çatır. O, polisə zəng edir və protezin məhz ona məxsus olduğunu deyir. Polis isə protezi Cənubi Karolinaya göndərir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.